

# Böyük güclərin nüfuz savaşı alovlana bilər

*Bu gün Azərbaycan, Türkiyə, Rusiya, İran və Ermənistan XİN başçılarının müavinləri görüşəcək. Türkiyə Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, Prezident Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin təklif etdiyi Cənubi Qafqazda daimi sülh və sabitliyin yaradılmasına xidmət edən "3+3" formatındakı regional əməkdaşlıq...*

Səh.9


# UNİKAL

№45 (2083) 10 dekabr 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Oqtay Şirəliyevin müəmmalı "varis"i...




Səh.3

# Sərhəddəki təxribatın arxasında gizlənən qara niyyət...

## Yeni Səhiyyə naziri kim olacaq?

*Məlum olduğu kimi, bu ilin aprelində Oqtay Şirəliyev Azərbaycan Respublikasının Səhiyyə naziri vəzifəsindən azad edildi. 2005-ci ilin oktyabr ayından bu postu tutan Şirəliyevin yerinə hələlik təyinat gerçəkləşməyib. Bəs yeni Səhiyyə naziri kim ola bilər? Bu sırada ilk olaraq nazirin birinci müavini, eyni zamanda hazırda nazir vəzifəsini müvəqqəti icra edən Teymur Musayevin adı çəkilir. Musayev 51 yaşındadır. O, 1987-ci ildə Azərbaycan Tibb İnstitutunun 1-ci müalicə-profilaktika fakültəsinin 1-ci kursuna qəbul olub. 1993-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib. Tibb elmləri üzrə fəlsəfə doktorudur. 2020-ci ilin aprel ayından etibarən Səhiyyə Nazirliyinin (SN) Səhiyyənin təşkili şöbəsinin müdiri olan Musayev bu ilin aprelindən isə Səhiyyə nazirinin birinci müavini, eyni zamanda Səhiyyə Nazirinin səlahiyyətlərinin...*

Səh.8

## "20-30 ilin məmurunu işdən çıxarır ki, öz komandamı yığmalıyam"



*Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini, deputat Fazil Mustafa "Unikal" qəzetinə müsahibə verib. O, kadr dəyişiklikləri, bir sıra qanunvericiliklə bağlı yeniliklər və digər məsələlər barədə fikirlərini bölüşüb.*

Səh.4

## Məleykə Abbaszadənin narazılıq yaradan qərarı



*Ötən həftə məlum oldu ki, Məleykə Abbaszadənin rəhbəri olduğu Dövlət İmtahan Mərkəzi (DİM) dekabrın 19-da qəbul imtahanlarına hazırlıq məqsədi ilə sınaq imtahanları təşkil edəcəyini açıqlayıb. DİM-in rəsmi saytında qeyd olunub ki, I, II,III, IV-ci qruplar üzrə imtahan verənlər 40 manat, III-cü ixtisas qrupu üzrə...*

Səh.6

## Təhsil Tələbə kreditlərinin verilməsi nəyi dəyişəcək?



*Azərbaycanda uzun illərdir ən çox müzakirə olunan məsələlərdən biri də, təhsil haqqını ödəyə bilməyən tələbələrə təhsil kreditlərinin verilməsi ilə bağlı idi ki, bu da öz həllini tapdı. Artıq noyabrın 25-dən təhsil tələbə krediti üçün müraciətlərin qəbuluna başlanılıb. Təhsil tələbə kreditlərinin verilməsi yenilik olsa da, şərtlərlə bağlı müəyyən narazılıqlar var.*

Səh.11

# Roza ilə Əkbərin toy tarixi də bəlli imiş



*”Fuad Əlişova 2010-cu ildə 20 min dollar pul verdim. ”Mənimlə mənsiz” mahnısına klip çəkirdik. Orada 6 saat yarım asılı qaldım”.*

Bu sözləri müğənni Roza Zərgərli ”Səhər mərkəzi” proqramında deyib. Sənətçi illər əvvəl rejissor Fuad Əlişova çəkdirdiyi klipin məbləğini açıqlayıb. Roza türkiyəli ifaçı Ajda Pekkanın sonuncu klipdə asılı vəziyyətdə qalması məsələsinə toxunub: ”Mən o yaşda asılı qaldıqdan sonra bir həftə əziyyət çəkdim. Ajda Pekkanın bu yaşda necə olacağını təsəvvür edin”.

Roza Əməkdar artist Elza Seyidcahanla aralarında yaşanan qalmaqaldan bəhs edib. İfaçı bədən quruluşunun müzakirə edilməsindən yorulduğunu söyləyib: ”Vücudumla müzakirə olunmaqdan yoruldum. Mən mağazaya gedib, reklam qarşılığında işləmirəm. Nəsə edirəmsə, pulumu verirəm. Nəsə etdirirəmsə, deyirəm, utanmıram. Ayağımda problem var, gizlətmirəm. Başqası deyər ki, mənə çolaq deyərlər, gizlədim. Liposaksiya etmişdim, çənəmdə piy yığıldı. Getdim onu da kəsdirdim. Bunu deyirəm, gizlətmirəm. Müğənnilərin savadı çatmayanda, bədənimi müzakirəyə qoyurlar. Elza Seyidcahanla da bununla başladı məsələ. Qayıtdı ki, getsin, fiqurası ilə məşğul olsun. Bu yaxınlarda ona jest etdim, barışmaq üçün. Oğlu Əkbərin xahişi ilə. Addım atdım, qayıtdı ki, bu kimdir, tanımıram. Elza qarşımda dizindizin sürünsə də olmaz. Başına maral taxmaqla deyil, içi boşdur”.

”Deyinən kişidən zəhləm gedir. Hər zaman ailə tərəfdarı olmuşam. Ailə istəyirəm. İki dəfə ailə qurmuşam. İnşallah, yenisi olar” deyə, Roza şəxsi həyatından danışıb.

İfaçı duet ortağı Əkbər Əliyevin ona evlilik təklifi etməsindən də söz açıb: ”Toya hazırlaşırdıq, martın 27-də mənim ad günümdə olacaqdı. Evlilik təklifi oyun deyildi, reallıq idi. 21 ildir biz yaxınıq. Amma olmayacaq, dost qalırıq. İndi də onu sevirəm, doğmamdı. Bəzi şeylər var ki, qəbul etmirəm. Hətta Məhərrəmlik ayının çıxmağını gözləyirdik ki, ailələr arasında söz kəsək. Əkbərin ilk evliliyi idi, ən böyük şadlıq sarayını seçmişdik. Mən yük üçün çox ağır insanam, birləşsək də, bir il sonra rüsvayçılıqla ayrılmaq istəmirik”.

# "Məcbur plastik əməliyyat etdirirlər, sonra da mimikaları dəyişir" - İzzət Bağırov

*”Məşhur müğənnini seçmək istəyirsinizsə, çıxın onunla şəhərdə gəzin. İndi guya gündəmdə olanlar, aralarında Xalq artistləri də var, fərq etmir. Gedək küçədə gəzək, görək insanlar kimə salam verəcək. Fərqi yoxdur, Bakının hər bir küçəsi və Azərbaycanın rayonları. Görək xalq kimi tanıyır, kimlə görüşür. Sənətçi var 40 ildir oxuyur, heç bir dəftərdə adı yoxdur. Xalq onu tanımır, şəklini göstərəndə bilmirlər kimdir”.*

Axşam.az xəbər verir ki, bu sözləri müğənni İzzət Bağırov ”Səhər mərkəzi” verilişində deyib. Sənətçi gündəmdə olan müğənnilərdən söz açıb.

İzzət ”Demisiz ki, xarici



aktyorların üzü qırış içindədir, bizimkilər isə...” sözlərinə belə reaksiya verib:

”Bizdə yaşlanan kimi başlayırlar onu efirdən, teatrdan, kinodan uzaqlaşdırırlar. Xaricdə isə üzü qırış-qırışdı filmlərə çəkilir. Silvester Stalonu, Tom Kruz, Roberto denero, Al Paçino yeni filmə çəkilir, üz-göz qırışdır. Daha da maraqlıdır. Türk seriallarında cavan oğlanla qız cütlük seçirlər, amma valideynlər daha çox tutur. Bizdə məcbur olub gedib plastik əməliyyat etdirir. O da efirdə görünür, mimika dəyişir”.

”Müğənni də cırıq cinslə efirə çıxar” açıqlamasını isə İzzət danıb: ”Klassik müğənni elə çıxmaz. Əslində pis fikir deyil. Elə bilin mən İzzət Bağırov, o cür səhnəyə çıxmışam. Deyəcəksiniz, nə əcəb? Müğənni var ki, elə çıxsa yeyiləcək. Hər verilişin öz geyimi var. Verilişə dəvət alanda deyirəm oxumaq var? Oxumaq olmayanda idman tərzi geyinirəm. Oxumaq varsa, kostyumla gəlirəm”.



# “Aparacağıq polisə, nənəsi gəlib ağlayacaq...” - Brilliant Dadaşova

*“Mənim şəklim, adım olan kimi şərhlər gəlir. Artıq buna öyrəşmişəm”.*

Bu sözləri Xalq artisti Brilliant Dadaşova “Günün sədası” verilişində deyib. Müğənni sosial şəbəkələrdə ünvanına yazılan tənqidlərdən gileylənib: “Ona görə deyirəm ki, yaxşının qəlbindəyik, pisin həmişə yaddaşındayıq. Mən onların çoxunun yaşayış tərzini görmüşəm. Bilirəm ki, mənim şəklimi qoyub pis bir şey yazanda 20-30 min baxış, mənim ünvanıma 300 pis söz gəlir. Bilməlidir ki, Allahın qapazı mütləq onlara dəyəcək”.

Xalq artistinin sözlərinə görə, o, ünvanına pis sözlər yazan sosial şəbəkə istifadəçilərindən hüquq-mühafizə orqanlarına şikayət etmir: “Aparacağıq polisə, yalvaracaq. Sonra nənəsi gələcək, ağlayacaq. Mən onsuz da onu bağışlayacağam. Amma bizim vaxtımız gedəcək. Çünki bir-iki dəfə olub. Ana gəlir, nənə gəlir, ağlayırlar, onsuz da bağışlayırsan”.

Dadaşova, həmçinin digər həmkarlarının onun ünvanına söz atdıqlarını deyib: “Bilirlər ki, cavab verməyəcəyəm. Haqqımda yalandan fikir formalaşdırırlar. Biri bu yaxınlarda yazıb ki, qaçırdım Brilliantın qabağına salam verirdim... Belə şey heç vaxt olmayıb. Sadəcə o adam eşidib ki, mən həmişə demişəm ki, İlhamə Quliyevanı sevirdim, qabağına qaçırdım, o məni saymırdı. İndi bunu götürüb mənə edir. Amma mənim qabağıma heç tanımadığım bir adam qaçsa, heç vaxt ola bilməz ki, salamı almayım. Salam Allahın adıdır. Elə adamlar var ki, onların mənə salam verməyindən qorxuram. Mənim atmosferimdə olmasınlar, bilirəm ki, pislik edən adamlardır”.

# "O nə idisə içdi və "Maşın" şouda uddu" - Vüsalədən Talıba

*Müğənni Talıb Tale ”7 canlı” verilişinin qonağı olub. Proqramın aparıcısı Vüsalə Əlizadə sənətçinin ”Maşın” şoudakı iştirakı ilə bağlı maraqlı açıqlama verib. O bildirib ki, Talıb şou boyunca özüylə termos gəzdirib və ordan su içirmiş.*



Belə ki, Vüsalə Talıba ”Yenə termosu özünlə gəzidirirsən” sualını ünvanlayıb. Müğənni isə ”Yox, artıq gəzdirmirəm” cavabını verib.

Vüsalə isə ”Onda ”Maşın” şouda nə eliksiri idisə içdin və maşını uddun. Bizi də qoydun yarı-yarımçıq. Nə eliksir idisə, özüylə gəzdirirdi” reaksiyasını verib.

Talıb isə gülərək ”Çox kömək oldu” sözlərini söyləyib.



## DİN-dən oyuncaq silah gəzdirənlərə xəbərdarlıq

***"Sosial şəbəkələrdə, elan saytlarında oyuncaq silah satışı var. Əksəriyyəti isə dəmir konstruksiyalıdır".***

Bunu "Unikal"a açıqlamasında Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev deyib.

O bildirib ki, oyuncaq silah əşyaları ilə bağlı hansısa qadağa yoxdur: "Ancaq bu oyuncaq əşyanı alıb onu ictimai yerlərdə, beldə, avtomobilin görünən yerində gəzdirilməsi və saxlanılması ilə bağlı polis orqanlarına vətəndaşlardan məlumatlar daxil olur. Yoxlayırıq, araşdırırıq, müəyyən edib dəvət edirik - cavab verir ki, "oyuncaqdır, elə-belə gəzdirirəm....". Bu, "elə-belə" gəzdirmə əməlinin adı nədir? Cavab verməkdə aciz qalır. Təbii ki, bizə məlumdur, onu niyə və səbəbə gəzdirir. Bu özünü göstərməkdir? Bu özünü güclü təqdim etməkdir? Bu kiminsə diqqətini çəkməkdir?

"Həmin şəxslərin diqqətinə çatdırın - bu, hansısa ictimai təhlükəli əmələ rəvac verə, yaxud kiminsə qorxmasına, həyacanlanmasına, stress keçirməsinə səbəb ola bilər", - şöbə rəisi vurğulayıb.

## Deputatın xanımı koronavirusa görə xəstəxanaya yerləşdirildi

***"Koronavirus, pandemiya hansı hiyləgər, məkirli siyasətin və insanlığa qarşı münasibətin göstəricisi olduğunu hələ də özüm üçün aydınlaşdıra bilmirəm".***

Bu fikirləri Modern.az-a açıqlamasında Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı bildirib. O koronavirusdan qorunmaq üçün iki dəfə Çin istehsalı olan "Sinovac", 3 -cu dəfə isə Almaniya istehsalı olan "Pfizer" peyvəndi vurdurduğunu qeyd edib.

"Peyvənd olunmağı zəruri hesab edirəm. Ailə üzvlərindən, oğul, qız, nəvələr yoluxandan sonra axırda Tənzilə xanım da virusa yoluxdu. Bir həftədir Mərkəzi Gömrük Hospitalında həkim nəzarətindədir. Vəziyyəti artıq yaxşıdır". Xalq şairi Tənzilə xanımın özünü qorduğunu, lakin son günlər Türkiyəyə səfər və bir sıra görüşlərdən sonra koronavirusa yoluxduğunu qeyd edib: "Özü bilir kim tərəfindən virusa yoluxub. Adamlar çox təkid, israrala yanına gəlirlər. Sonra məlum olur ki, xəstə ola-ola vicdansızcasına gəlib, başqalarını da yoluxdurur".

Qeyd edək ki, koronavirusa yoluxmuş Tənzilə Rüstəmxanlı iki dəfə Çin istehsalı olan "Sinovac" peyvəndi vurdurub.

Sabir Rüstəmxanlı isə hələ ki özünü qoruya bilib və yoluxmaya yaxalanmayıb.

## Klinik Tibbi Mərkəzə yeni təyinat

***İnfeksion xəstəlikləri və klinik mikrobioligiya üzrə uzman Fərrux Sədirov bundan sonra Kliniki Tibbi Mərkəzdə baş infeksionist vəzifəsinə təyin olunub.***

Bu haqda Mərkəzdən məlumat verilib. Fərrux Sədirov 2020-2021-ci illərdə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" PHŞ, TƏBİB-in koordinasiyası şöbəsinin Cənub ərazi bölməsi üzrə koordinatoru vəzifəsində çalışıb.

Eyni zamanda, Uzm. Dr. Fərrux Sədirov "Caspian International Hospital"da da infeksion xəstəlikləri və klinik mikrobioligiya üzrə uzman doktor kimi fəaliyyət göstərib.

# Oqtay Şirəliyevin müəmmalı "varis"i...

## Yeni Səhiyyə naziri kim olacaq?

***Məlum olduğu kimi, bu ilin aprelində Oqtay Şirəliyev Azərbaycan Respublikasının Səhiyyə naziri vəzifəsindən azad edildi. 2005-ci ilin oktyabr ayından bu postu tutan Şirəliyevin yerinə hələlik təyinat gerçəkləşməyib.***

Bəs yeni Səhiyyə naziri kim ola bilər?

Bu sırada ilk olaraq nazirin birinci müavini, eyni zamanda hazırda nazir vəzifəsini müvəqqəti icra edən Teymur Musayevin adı çəkilir. Musayev 51 yaşındadır. O, 1987-ci ildə Azərbaycan Tibb İnstitutunun 1-ci müalicə-profilaktika fakültəsinin 1-ci kursuna qəbul olub. 1993-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib. Tibb elmləri üzrə fəlsəfə doktorudur. 2020-ci ilin aprel ayından etibarən Səhiyyə Nazirliyinin (SN) Səhiyyənin təşkili şöbəsinin müdiri olan Musayev bu ilin aprelindən isə Səhiyyə nazirinin birinci müavini, eyni zamanda Səhiyyə Nazirinin səlahiyyətlərinin icraçısıdır. O, bu təyinatları aldıqdan sonra nazirlikdə ciddi kadr islahatlarına start verib, bir sıra önəmli post sahiblərini (məsələn, Səhiyyə Nazirliyi aparatının rəhbəri Nadir Zeynalovu, Beynəlxaq əməkdaşlıq və ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Samir Allahverdiyevi, Ümumi şöbənin rəhbəri Ləman Əlizadəni, QİÇS-lə Mübarizə Mərkəzinin direktoru vəzifəsini icra edən Esmira Alməmmədovanı, nazirliyin Əsaslı Tkinti İdarəsinin rəisi Zahid Qəribovu) vəzifələrindən kənarlaşdırıb. Bu islahatlar Səhiyyə Nazirliyində "təmizləmə əməliyyatı", yəni eks-nazir Oqtay Şirəliyevin kadrlarının bu qurumdan uzaqlaşdırılması kimi qiymətləndirilməklə yanaşı, həm də Musayevin nazir təyinatına hazırlığı kimi dəyərləndirilir.



SN-i postuna namizədlərdən biri isə deputat Kamaləddin Qafarov hesab olunur. 45 yaşlı Qafarov 1993-cü ildə Azərbaycan Tibb Universitetinin kimya-biologiya təmayüllü Respublika Baza Litseyində orta təhsilini başa vurub. Həmin ildə Y.H. Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə daxil olub, 1997-ci ildə meyvə-tərəvəzçilik və üzümçülük fakültəsini bitirib. Daha sonra ikinci ali təhsil almaq üçün Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olub və 2009-cu ildə həmin universitetin maliyyə və kredit ixtisasını bitirib. 2005-si ildən əczaçılıq şirkətində operatorluqdan başlayaraq müxtəlif vəzifələrdə çalışıb. 2013-cü ildə həmin şirkətin maliyyə direktoru vəzifəsinə irəli çəkilib. 2014-cü il sentyabrın 16-da başqa işə keçməsi ilə əlaqədar öz xahişi ilə işdən azad edilib.

2014-cü il sentyabrın 17-də Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin Baş direktor müavini vəzifəsinə təyin olunan Qafarov 2015-ci ildə 9 saylı Binəqədi İkinci Seçki dairəsindən V və 2020-ci ildə VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. K.Qafarov eyni zamanda parlamentin Səhiyyə Komitəsinin üzvüdür.

Yeni Səhiyyə naziri ola biləcəyi iddia edilən şəxslərdən biri isə millət vəkili, tanınmış ürək-damar cərrahı, Tibb üzrə elmlər doktoru, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası İdarə heyətinin sədri Rəşad Mahmudovdur. 47 yaşlı Mahmudov tibb təhsilini Türkiyənin məşhur 9 Eylül Universitetində alıb və 2003-cü ildə Türkiyə Respublikasındakı Ege Universitetində Uzmanlıq Diplomu müdafiə edib.

2015-ci ildən etibarən 77 saylı Astara seçki dairəsindən deputat fəaliyyəti göstərən Mahmudov 8000 nəfərdən çox yaşlı və uşaqda açıq ürək əməliyyatları aparıb. O öz sahəsində ən güclü mütəxəssislərdən sayılır.

Qeyd edək ki, Səhiyyə naziri postuna namizədlər arasında bir müddət əvvələdək TƏBİB-in keçmiş rəhbəri Ramin Bayramlının da adı çəkilirdi. Lakin onun vəzifəsindən istefa verməsi və TƏBİB-ə rəhbərlik etdiyi dövrlə bağlı cəmiyyətdə birmənalı rəyin formalaşmaması, barəsində çoxsaylı narazılıqların səslənməsi onu Oqtay Şirəliyevin "varis"i ola bilmə ehtimalını sıfıra endirib.

Bəzi mənbələrə görə isə yeni nazir yuxarıda adıçəkilən şəxslərdən hər hansı biri olmaya da bilər. Hətta SN-nin potensial başçısının ictimiyyətdə kifayət qədər tanınmayan, sürpriz bir şəxsin ola biləcəyini proqnozlaşdıranlar da kifayət qədərdir.

Biz bu yazıda yeni Səhiyyə naziri ola biləcəyi iddia olunan şəxslər barədə danışdıq. Son qərar isə təbii ki, ölkə başçısınındır. Odur ki həmin vəzifəyə təyinatla bağlı bizə yalnız gözləmək qalır...

***Sənan Mirzə***

# Nazirlik şəhid anasının müavinətini kəsdi

***Mingəçevirdə şəhid anasının xəstəliyə görə müavinəti kəsilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "qaynar xətti" zənglərə cavab vermir.***

Məsələ ilə bağlı "Unikal"a Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Emin Firqət oğlu Rüstəmzadənin anası Kəmalə Rüstəmova bildirib ki, o, ikinci qrup əlildir:

"Onkoloji xəstəliyimə görə iki dəfə əməliyyat olunmuşam. 2-ci qrup əlil olduğum üçün dövlət tərəfindən hər ay 130 manat əlillik müavinətim dayandırılıb. Səbəb olaraq təkrar müayinədən keçməyimin vacib olduğunu bildirdilər. Bütün tələblərə riayət etməyimə baxmayaraq nə cavab verən var, nə də ölçü götürən. Bütün aidiyyatı qurumlar məsələdən xəbərdardır. Həyat yoldaşım Firqət kişi "142" qaynar xətt nömrəsinə dəfələrlə zəng edib. Ən üzüntülü məsələ odur ki nazirlik rəsmiləri telefon zənglərimizə cavab vermir. Yeganə oğul övladımı Vətən Müharibəsində itirmişəm. Oğlumun İnci və Nura adlı iki qız övladı var. Onlar da mənim himayəmdədirlər. Bir şəhid anası olaraq əlillik müavinətimin bərpa edilməsinə yardım göstərilməsini xahiş edirəm".



Qeyd edək ki, şəhid Emin Rüstəmzadə ailənin yeganə oğul övladıdır. Onun bir bacısı var. Övladları və xanımı valideyinləri ilə birgə yaşayır. Şəhidimiz "Suqovuşanın azadlığı uğrunda", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medallarına layiq görülüb.

***E.Muradlı***

# Böyük güclərin nüfuz savaşı alovlana bilər

***Bu gün Azərbaycan, Türkiyə, Rusiya, İran və Ermənistan XİN başçılarının müavinləri görüşəcək. Türkiyə Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, Prezident Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin təklif etdiyi Cənubi Qafqazda daimi sülh və sabitliyin yaradılmasına xidmət edən “3+3” formatındakı regional əməkdaşlıq platformasının ilk iclası dekabrın 10-da Moskvada keçiriləcək.***

“Nəhayət, altılıq platformasının reallaşması mümkün ola bilər. Amma bunun nə qədər müddətdə və hansı formatda reallaşmasının özü belə hələ ki sual altındadır”. Bunu “Unikal”a açıqlamasında siyasi şərhçi Samir Hümbətov bildirib. O qeyd edib ki, regionun bəzi dövlətləri, xüsusilə də Rusiya və İran hər il sanksiyalardan milyardlarla dollar ziyan dəyən çökmüş iqtisadiyyatlarını dirçəltmək üçün istənilən formatlı platformanın qurulmasını məqbul hesab edirlər: “Eyni zamanda nə Rusiya, nə də İran Qərbin regionda mövcudluğunu görmək niyyətində olmadığı üçün region dövlətləri ilə dil tapmağa çalışdıqları hiss edilməkdədir”.

S.Hümbətov deyib ki, regional əməkdaşlıqla bağlı keçiriləcək görüşdə Gürcüstan tərəfi iştirak etmək niyyətində deyil: “Bir neçə gün öncə Gürcüstan XİN başçısı David Zalkaliani Rusiyanın Gürcüstan ərazisini işğal etməsini nəzərdə tutaraq bildirib ki, “Ərazilərimizi işğalda saxlayan ölkənin olduğu geosiyasi layihədə iştirak edə bilmərik. Bu mövqeyimi türkiyəli, azərbaycanlı və erməni həmkarlarımla görüşlərdə açıq şəkildə ifadə etmişəm”. Gürcüstan XİN başçısının sözlərindən və yayılan son məlumatdan da belə aydın olur ki, Gücüstan Rusiya tərəfindən işğal və ilhaq edilmiş Abxaziya və Cənubi Osetiya ərazilərinin işğalda qaldığı müddətdə onunla hər hansı qurumda təmsil olunmaq niyyətində görünmür”.

“Şərq-Qərb” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu isə fikirlərini bölüşərkən başqa istiqamətə diqqət çəkib. Onun fikrincə, son dövrlər baş verənlər onu göstərir ki, Mərkəzi Asiya geosiyasi rəqabətin yeni nöqtəsinə çevrilir: “Əvvəlki şərhlərimdə də bildirmişdim ki, Rusiyanın Ukraynaya hərbi müdaxiləsi yalnız Kremlin imitasiyası və siyasi blefidir, əslində isə Moskvanın hədəfində olan Mərkəzi Asiyadır. Deməli, təkcə Moskvanın yox. Bəs il ərzində yalnız ABŞ prezidenti Cozef Baydenlə (Cenevrədə) üzbəüz görüş keçirən Rusiya prezidentini gözlənilmədən Hindistana səfərə vadar edən nə oldu? Vladimir Putinin bu səfərinin amerikalı həmkarı ilə videokonfrans formatında keçirdiyi müzakirənin ardınca baş tutması hansı səbəblərdən qaynaqlanır və Rusiya prezidenti Vladimir Putinlə Hindistan lideri Ravendra Modi arasında nələr müzakirə oluna bilərdi?”

Ə.Oruclu bildirib ki, V.Putinin C.Baydenlə son danışıqları bir neçə məsələyə tam aydınlıq gətirdi: “1. Ağ Ev ABŞ-ın və onun NATO tərəfdaşlarının Rusiyanın Ukraynaya hərbi təcavüzünə layiqli cavab verməkdə israrlı olduğunu açıq şəkildə bəyan etdi. ABŞ prezidenti bir qədər də uzağa gedərək, Rusiya prezidentinə bildirdi ki, Ukraynanın NATO-ya mümkün üzvlük məsələsi heç bir halda Moskva ilə müzakirə və ya məsləhətləşmə predmeti ola bilməz və olmayacaq. Bəyanatlarla kifayətlənməyən ABŞ özünün gələn il üçün hərbi büdcəsinə Ukraynaya hərbi yardımla bağlı xərcləri də daxil etməklə göstərdi ki, Vaşinqtonun Kiyevin müdafiəsinə yönəlik siyasəti artıq yalnız xəbərdarlıqlardan və çəkindirmələrdən ibarət olmayacaq. Belə birmənalı mövqe Rusiyanın Ukraynaya qarşı təcavüz imitasiyasına vurulan yekun akkord oldu. Amma əslində Moskva özü də başqa reaksiya gözləmirdi və onun anti-ukrayna siyasəti əsasən diqqəti əsas hədəfdən yayındırmaq və “nəbz yoxlamaq” taktikası idi.

Hər iki taktiki addımı ilə bağlı konturların tam müəyyənləşməsi başa çatdığından Moskva əsas planının reallaşdırılması istiqamətində konkret fəaliyyətə keçir. Plan isə əvvəl də deyildiyi kimi Rusiyanın Mərkəzi Asiya istiqamətində xarici siyasətini gücləndirməkdən və bölgəni öz nəzarətinə qaytarmaqdan ibarətdir”.

Ekspert bildirib ki, Mərkəzi Asiya istiqamətində öz təsirini artırmaq Moskva üçün strateji əhəmiyyət kəsb edir və bir neçə məsələni eyni zamanda hədəfləməyə imkan verir. “Hər şeydən əvvəl bu, region ölkələri ilə sıx əlaqələr qurmağa can atan Ankaranın qarşısını almaq üçün vacibdir. Türkiyənin Mərkəzi Asiya ölkələri ilə hərbi-siyasi əməkdaşlıq qurmaq səylərini Rusiya özünün təhlükəsizliyi üçün təhdid hesab edir. Digər tərəfdən də belə bir əməkdaşlığın qurulması Rusiyanın əbədi ”isti dənizlərə çıxış” xülyasına son qoymuş olardı. Həm də ona görə ki, bu halda həmin planın qarşısı təkcə Mərkəzi Asiyanın şimalından deyil, həm də onun cənub cinahından kəsilmiş olur.

Unutmayaq ki, şimaldan (Rusiyadan) Qazaxıstanla ayrılan Mərkəzi Asiya və Əfqanıstan bölgəsi cənubdan Ankaranın hərbi-siyasi tərəfdaşı olan Pakistan tərəfindən qapanır. Göstərilən böyük bir regionun Ankara-İslamabad alyansının, həmçinin onun üzdə görünməyən tərəfdaşlarının nəzarətinə keçməsi Moskva üçün başqa itkilərə də səbəb ola bilər”.

Ə.Oruclu onu da deyib ki, Moskva üçün ciddi narahatlıq doğuran həmin səbəblərdən biri də Türkiyə-Pakistan alyansı üzvlərindən birincisinin NATO üzvü, ikincisinin isə Pekinlə sıx müttəfiqlik münasibətində olmasıdır. “Deməli, Çin-Avropa daşımalarından yararlanmağa çalışan Rusiya tam oyundankənar vəziyyətə düşə bilər. Bölgədəki gəlişmələrə Çinin təmkinli münasibəti də Moskva üçün məhz buna işarədir. Belə olduqda Rusiya üçün yeganə çıxış yolu Mərkəzi Asiyaya siyasi, ardınca da hərbi müdaxilə olur ki, bu da ilk növbədə Qazaxıstana təsirdən başlamalıdır. Görünür, başda prezident Putin olmaqla Rusiya hakim dairələrinin son aylar ərzində dəfələrlə Qazaxıstana qarşı ərazi iddiaları irəli sürməsi heç də təsadüfi deyil.



Amma yuxarıda qeyd olunduğu kimi, bölgəyə cənubdan (Pakistan vasitəsilə) girişin və mümkün təsirin qarşısının alınması da bu halda ciddi hərbi-taktiki əhəmiyyət kəsb edir. Görünür, Moskva elə buna görə də regionda yeganə tərəfdaş kimi Dehlini görür və onunla müvafiq anlaşmalara getməyə çalışır.

Amma Hindistanın təkcə Pakistanla deyil, elə Çinin özü ilə də münasibətlərində problemlərinin olması onu Moskvanın planlarından çəkinməyə də sövq edə bilər. Bundan sığortalanmaq üçün isə Rusiya Hindistana geniş hərbi əməkdaşlıq proqramı təklif etməlidir. Bölgədəki əsas rəqibi olan Çindən bütün parametrlər üzrə xeyli geridə qalan Hindistan üçün belə əməkdaşlıq əlverişli olardı.

Bütün bu gəlişmələr fonunda son günlər Mərkəzi Asiya bölgəsinə yeni bir oyuncu da daxil oldu. Özü də bu dəfə artıq hansısa mücərrəd dəyərlər və anlayışlarla deyil, real hərbi əməkdaşlıq planı ilə.

İki gün əvvəl ABŞ-ın və Qazaxıstanın müdafiə nazirlikləri arasında 2022-27-a ci illəri əhatə edən geniş hərbi əməkdaşlıq barədə anlaşma imzalandı.

Göründüyü kimi, Vaşinqtonun da diqqəti təkcə Kiyevlə məhdudlaşmır. Bu isə Mərkəzi Asiyanı geosiyasi mübarizənin qaynar nöqtəsinə çevirir”.

***Z.Məmmədli***



## Nazirlikdən “Omikron” ştamı ilə bağlı əhaliyə çağırış

***”Pandemiya hələ sona çatmayıb. Bu gün virusun daha çox mutasiyaya uğramış, yeni ştamı - “Omikron” ştamı peyda olub və hamının narahatçılığına səbəb yaradıb”.***

“Unikal” xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov deyib. T.Eyvazov bildirib ki, ilkin mülahizələrə görə yeni ştam daha sürətlə yayıla bilir, həm də əvvəlki qazanılmış immun cavabdan müəyyən qədər yayına bilir: ”Yaxın vaxtlarda müşahidələr bu mülahizələrin nə qədər doğru olmasına aydınlıq gətirəcək. Belə bir təhlükə şəraitində insanların qorunması, yoluxma hallarının sürətli artımının qarşısının alınması məhz bizim qoruyucu qızıl qaydalara necə əməl etməyimiz və yenə də vaksinasiyada fəal iştirakımızdan asılı olacaq”.

Onun sözlərinə görə, bu qoruyucu qaydalara ciddi əməl etmək və eyni zamanda yaşlı və xəstə insanların, uşaqların, hamilə qadınların qrip virusuna qarşı da peyvənd olunması mövsümi respirator infeksiyaların, onlardan baş verə biləcək ağırlaşmaların azalmasına gətirib çıxara bilər.

”Beləliklə, hər şey özümüzdən asılıdır, yalnız səylərimizi birləşdirməklə infeksiyanı etibarlı surətdə nəzarətdə saxlaya və öz doğlun həyatımıza davam edə bilərik”, - deyə SN-in mütəxəssis-eksperti bildirib.

## "Şuşada 1 nömrəli məktəbin tikintisinə başlanılıb" - Nazir

***”Hazırda Şuşada bir nömrəli məktəbin tikinti prosesinə başlanılıb”.***

“Unikal” xəbər verir ki, bunu təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında bildirib.

Nazir qeyd edib ki, artıq layihələndirmə prosesi başlanılıb: ”Bu prosesin 2022-ci ilin sonuna qədər bitməsi gözlənilir. Eyni zamanda, Ağdam və Cəbrayılda layihələndirmə prosesi başlayıb. Yəqin ki, yaxın zamanlarda Füzuli şəhərində məktəb tikintisi ilə bağlı addımlar atılacaq. Bu, çox ciddi və böyük prosesdir. Həm Ağdam, həm də Şuşa məktəbi özünün müasirliyi, eyni zamanda arxitektur inşaat xüsusiyyətlərinə görə ən müasir məktəblərimizdən olacaq”.

## Qəzaya düşən helikopterin “qara qutu”su tapıldı

***Ötən gün Hindistanın Tamilnad ştatında göyərtəsində ölkənin Silahlı Qüvvələrinin Müdafiə Nazirliyinin Baş Qərargahının rəisi Bipin Ravatın da olduğu “Mi-17B5” hərbi helikopteri qəzaya uğrayıb.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, hind hərbçilər bu gün helikopterin “qara qutu”sunu və kabinədən diktofon aşkar ediblər. Bildirilir ki, bu qurğuların deşifrə edilməsi sayəsində qəzanın səbəblərini aydınlaşdırmaq mümkün olacaq. Qeyd edək ki, helikopterin qəzaya uğraması nəticəsində general Bipin Ravat, onun həyat yoldaşı və silahlı qüvvələrin digər 11 üzvü həlak olub.

# İlham Əliyev Almaniyanın yeni kanslerini təbrik etdi



***Azərbaycan Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsa təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, təbrik məktubunda deyilir: "Hörmətli cənab Federal Kansler, Almaniya Federativ Respublikasının Federal Kansleri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimiyyətlə təbrik edir və ən xoş arzularımı yetirirəm. Biz Azərbaycan ilə Almaniya arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına xüsusi əhəmiyyət veririk. Siyasi, iqtisadi və mədəni sahələrdə səmərəli əməkdaşlığımız dövlətlərarası münasibətlərimizi səciyyələndirən mühüm amillərdəndir. İnanıram ki, gələn il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edəcək ölkələrimiz arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm".

# "Yüksəliş" müsabiqəsinə 1 milyon manat ayrıldı

***Prezident İlham Əliyev 2022-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər və "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" sərəncamda dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncama əsasən, 2022-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezident ehtiyat fondundan Gənclər və İdman Nazirliyinə bir milyon manat ayrılıb.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1293) 2-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsinin tərkibi aşağıdakı redaksiyada verilsin:

"Təşkilat Komitəsinin sədri
Fərəh Əliyeva - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının
Humanitar siyasət, diaspor, multikulturalizm və dini
məsələlər şöbəsinin müdiri
Təşkilat Komitəsinin üzvləri
Anar Ələkbərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi
Fərid Qayıbov - Azərbaycan Respublikasının gənclər və idman naziri
Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadiyyat naziri
Emin Əmrullayev - Azərbaycan Respublikasının təhsil naziri
Ceyhun Bayramov - Azərbaycan Respublikasının xarici işlər naziri
Sahil Babayev - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri
Məleykə Abbaszadə - Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin
Direktorlar Şurasının sədri
Ülvi Quliyev - Azərbaycan Respublikası Milli Məclisinin deputatı
Balakişi Qasımov - İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru".

# Vasif Talıbov ona vəzifə verdi



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri vəzifəsinə təyinat olub.***

"Unikal" xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərəncam imzalayıb.

Sərəncamla bu vəzifəyə Emin Məmmədəli oğlu Məmmədov təyinat alıb.

Qeyd edək ki, Emin Məmmədov bundan əvvəl Naxçıvan Dövlət Universitetinin "Ümumi tarix" kafedrasında müəllim işləyib.

***Anar Kəlbiyev***

# MTN polkovnikinin ölüm səbəbi bəlli oldu - RƏSMİ

***Ədliyyə Nazirliyi Penitensiar xidməti ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin sabiq şöbə rəisinin ölümü ilə bağlı məlumat yayıb.***

"Unikal" xəbər verir ki, məlumatda deyilir: "Təhlükəsizlik xidmətinin sabiq əməkdaşı Zakir İsmayılovun cəzaçəkmə müəssisəsində vəfatı barədə yayılmış məlumatla bağlı kütləvi informasiya vasitələrinin sorğularına cavab olaraq Ədliyyə Nazirliyinin Penitensiar xidməti bildirir ki, Naxçıvan MR-nın



ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin sabiq şöbə rəisi vəzifəsində işləmiş, polkovnik rütbəsində olan Z.İsmayılov xüsusilə ağır cinayət törətdiyinə görə ömürlük azadlıqdan, həmçinin polkovnik rütbəsindən məhrum edilib. Müxtəlif xroniki xəstəliklərdən, o cümlədən ağır formalı diabet, arterial hipertoniya, kəskin ürək və qan-damar çatışmazlığından əziyyət çəkən 1959-cu il təvəllüdlü Zaki İsmayılov müalicə müəssisəsində uzun müddət zəruri müalicə alıb. Lakin aparılan tibbi tədbirlərə baxmayaraq, o, 25 noyabr 2021-ci il tarixdə trombemboliyadan qəflətən vəfat edib".

# Son sutkada koronavirusa yoluxanların sayı açıqlandı




***Azərbaycanda bu gün koronavirus infeksiyasına 1 315 yeni yoluxma faktı qeydə alınıb, 1 850 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkadan 19 nəfər COVID-19-dan dünyasını dəyişib.

# Ermənilər Sarkisyanın və Paşinyanın işini bəyənmirlər - SORĞU



***"Gallup" Beynəlxalq Assosiasiyasının Ermənistan ofisinin direktoru Aram Navasardyan vətəndaşlar arasında noyabr ayında keçirilən sorğunun yekun nəticəsini açıqlayıb.***

"Unikal" xəbər verir ki, o, bu barədə məlumatı mətbuat konfransında verib. Aram Navasardyanın sözlərinə görə, respondentlərin 60,5%-i hökumətin işini bəyənməyib, yalnız 23%-i müsbət rəy verib.

Baş nazir Nikol Paşinyanın da işi bəyənilməyənlər sırasındadır. Belə ki, 49,4% əhali Paşinyanın işini mənfi qiymətləndirib. 60% əhali isə Ermənistanın prezidenti Armen Sarkisyanın fəaliyyətini bəyənmədiyini bildirib.

***Gülayə Mecid***

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5ᴺ
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# "Azərbaycan ilə Ermənistan liderləri arasında təmaslar davam etməlidir" - Rusiya XİN

***"Rusiya həm Bakı, həm də İrəvanla təmasdadır. Biz Cənubi Qafqazda sərhəd mübahisələrinin həlli, nəqliyyat yollarının açılması istiqamətində çalışırıq".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova həftəlik brifinqdə bildirib.

"Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin tərəflərin sorğusu ilə Rusiyanın da dəstəyilə delimitasiyası, sonra isə demarkasiyası üçün ikitərəfli komissiya yaratmaq istiqamətində işlər görülməlidir" - deyən Rusiya rəsmisi sözügedən komissiyaya hər ölkədən nümayəndə heyətlərinin tezliklə təyin olunmasını gözlədiklərini diqqətə çatdırıb.

O həmçinin bildirib ki, üçtərəfli işçi qrup çərçivəsində regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılması üçün səylər davam etdirilir.



# Sərhəddəki təxribatın arxasında gizlənən qara niyyət...

***Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində dekabrın 8-i gecə saatlarında Ermənistan silahlı qüvvələrinin törətdiyi növbəti təxribat nəticəsində hərbi qulluqçumuz əsgər Əliyev Asif Adil oğlu şəhid olub.***



Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olan hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbr diləyir. Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən müvafiq tədbirlər nəticəsində qarşı tərəf susdurulub. Baş verən növbəti gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Politoloq Məhəmməd Əsədullazadə "Unikal"a açıqlamasında bildirib ki, Ermənistanın Kəlbəcərdə təxribatları əsasən Brüssel görüşü ərəfəsində böhran yaratmaq, Minsk qrupunun fəaliyyətini gündəmə gətirməklə Soçi Bəyannaməsindən yayınmaqdır. Onun fikrincə, Ermənistan tərəfi prosesləri həlaki pozur və dəhliz məsələsini kənar tutmağa çalışır: "Qeyd edim ki, 10 noyabr Birgə Bəyannaməsinin 9-cu bəndində dəhlizin açılması qeyd olunub. Brüssel görüşü ərəfəsində belə təxribatlar gözlənilirdi. Burada Rusiyaya bağlı generalların da fəaliyyəti ola bilər".

Politoloq Qabil Hüseynli isə hesab edir ki, Ermənistan-Azərbaycan sərhədində baş verən hadisələr narahatlıq yaradır. Onun sözlərinə görə, Ermənistanın bu təxribatları həmişə olduğu kimi, bir xətt üzrə ortaya çıxır və müəyyən məqsədlər naminə istiqamətləndirilir: "Təbii ki, burada revanşist qüvvələrin fəaliyyəti şübhəsizdir. Son təxribatların əsas səbəbkarı kimi Ermənistandakı "Qarabağ klanı" və onların müdafiə nazirliyi sistemində yerləşdirdiyi kadrlardır. Ermənistanda başda baş nazir Nikol Paşinyan olmaqla onların hamısının əhval-ruhiyyəsi qisasçılıq xarakteri daşıyır. Onlar hələ də Azərbaycanın qələbəsini həzm edə bilmirlər. Ona görə də mütəmadi olaraq təxribatlara əl atırlar. 26 noyabrda Moskvada baş tutan Soçi görüşündən sonra müəyyən qənaətlər hasil olunduqdan sonra ermənilərin vurnuxmalarının sayı daha da artıb. Məhz bunun nəticəsidir ki, Qərbdəki müəyyən dairələrin köməyi ilə Azərbaycanı Soçi müstəvisindən Brüssel müstəvisinə çəkmək istəyirlər".

***İnformasiya şöbəsi***

# "Kadr islahatları davamlı olacaq" - Fərid Qayıbov

***Gənclər və İdman Nazirliyində aparılan kadr islahatları davamlı olacaq.***

"Unaikal" xəbər verir ki, bunu gənclər və idman naziri Fərid Qayıbov deyib. O bildirib ki, kadr dəyişikləri islahatların bir növ davamıdır: "Gənclər və idman sahəsində işlərə başlanılıb. Layihələr hazırlanılır. Lakin bu işlər birdən-birə həyata keçirilmir. Hal-hazırda araşdırmalar gedir, təhlillər aparılır. Araşdırmalar nəticəsində hansı istiqamətdə işlərin getməsini müəyyəndirəcəyik və qərarları qəbul edəcəyik. Gənclər evlərimiz var. Onlar nə ilə məşğuldur, hansı işləri görməlidirlər? Olimpiya idman kompleksləri, idman klublarımızın fəaliyyəti, strukturu necə olmalıdır? Uşaq idmandından tutmuş milli komandaya qədər idmançılarımızın necə olması, hansı dəstəyin göstərilməsi üzərində iş gedir".

Nazir qeyd edib ki, aparılan təhlillər əsasında qərarlar qəbul ediləcək.

Pekin Yay Olimpiya Oyunlarından sonra federasiyalarda iclaslar keçirilir, bəzilərində dəyişiklər edilir.O bildirib ki, artıq yeni olimpiyadaya hazırlıqlar başlanılıb: "Hazırlıq prosesində yeni idmançılar da cəlb edilib. Elə idmançılarımız var ki, onlardan bir neçə olimpiya oyunlarında medal gözləyirik, təəssüf ki, qazana bilmir və ya olimpiyadaya çıxa bilmir. Eləleri də var ki, olimpiyadada medal qazanır. Bu daha çox federasiyaların işidir. Onlarla birlikdə işləyirik. Olimpiya oyunlarına hazırlıq prosesini müzakirə edəcəyik. Bunun əsasında da müvafiq qərarlar qəbul edəcəyik. Qarşıda 3 ilimiz var, əslində çox vaxt deyil. Gələn il lisenziyalar uğrunda idmançılarımızın mübarizələri başlayacaq".



# Hərbi Prokurorluqda Heydər Əliyevin vəfatının ildönümü ilə bağlı anım mərasimi keçirildi

***Dekabrın 9-da Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda xalqımızın ümummilli lideri, böyük tarixi şəxsiyyət Heydər Əliyevin vəfatının 18-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib.***

Hərbi Prokurorluğun mətbuat xidmətindən "Unikal"a bildirilib ki, əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, dünyaşöhrətli siyasətçinin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dahi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən öncə mərasim iştirakçıları ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev qəlbi daim vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, istiqlal yolumuzu və istiqbalımızı nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan müdrik lider Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən geniş bəhs edib.

Çıxışının sonunda Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, dəyərli və mənalı ömrünü Azərbaycana həsr edərək milləti qarşısında misilsiz xidmətlər göstərməklə Azərbaycan xalqının ümummilli lideri adını qazanmış dünya siyasətinin parlaq siması ulu öndər Heydər Əliyev tarixdə və azərbaycanlıların qəlbində əbədi olaraq qalacaq, nəhəng tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsi hər zaman böyük ehtiramla yad ediləcək.



# Baş nazir əmr verdi

## "ASAN müraciət"in Əsasnaməsi təsdiqləndi

***"ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə təsdiq edilib.***

"Unikal"ın məlumatına görə, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə "ASAN müraciət" informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görməlidir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nda müəyyən edilən keçid dövrü nəzərə alınmaqla, "ASAN müraciət" informasiya sisteminin "Hökumət buludu"na keçidinin təşkili ilə bağlı tədbirlər görməlidir.

"ASAN müraciət" informasiya sisteminin fəaliyyətində iştirak edən qurumların Siyahısı"nda qeyd olunan dövlət orqanlarına (qurumlarına) tapşırılıb ki, həmin Əsasnamə ilə müəyyən edilmiş funksiyalarının həyata keçirilməsini təmin etmək məqsədilə 2 (iki) ay müddətində müvafiq tədbirlər görsünlər.

# "Demokratiya sammitinin iştirakçıları ABŞ-ın maraqlarına xidmət edəcəklər" - Zaxarova

***"Birləşmiş Ştatlar dekabrın 9-10-da keçiriləcək "Demokratiya sammiti"nin iştirakçılarına Amerikanın maraqlarına xidmət göstərmək "fəxri hüquq"u verəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova özünün "Telegram" kanalında yazıb. Diplomat ABŞ prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivanın beynəlxalq münasibətlər sisteminin transformasiya olunduğu, onların II Dünya Müharibəsindən sonra formalaşdırdığı BMT-nin rəhbərliyi ilə hazırkı strukturunun tədricən keçmişə çevrildiyi barədə fikirlərinə diqqət çəkib.

"Əslində bizim düz üç ildir danışdığımız məsələdir. Birləşmiş Ştatlar təkbaşına dominatlıq etmək və özünün rahatlıq zonasını yaratmaq üçün beynəlxalq hüquqa əsaslanan beynəlxalq münasibətlər sistemini və BMT-nin mərkəzi rolunu məhv edir.

Məhz bunun üçün Birləşmiş Ştatlar "demokratiya zirvəsi" şəklində" iştirakçılara Amerika rejiminin maraqlarına xidmətə görə "fəxri hüquq" verəcək massovka təşkil edir, - Zaxarova söyləyib.

XİN rəsmisi hesab edir ki, Sallivanın açıqlamasını "sinizim"dən "soyuqqanlı"ya qədər bir çox cəhətdən qiymətləndirmək olar.

Xatırladaq ki, ABŞ 9-10 dekabr tarixlərində videokonfrans vasitəsilə keçiriləcək "Demokratiya sammitinə" 110 ökəni dəvət edib. Siyahıya Çinin Tayvan adası da daxildir, lakin Çin, Rusiya, Türkiyə, Misir və bir sıra digər ölkələr tədbirə dəvət almayıb.

Daha əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib ki, tədbirin məqsədi insanları və ölkələri demokratik və qeyri-demokratik olaraq bölməkdir.



# Azərbaycanda media subyektlərinə vergi güzəştləri təklif edilir

Agentlik sədri: "Onlayn media subyektlərinə güzəştlərin edilməsi üzərində iş gedir"

***"Jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı layihələr hazırlanıb". "Unikal"ın məlumatına görə, bunu Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.***

O bildirib ki, jurnalistlərin vergi güzəştləri və digər sosial təminatlardan da yararlanması üçün layihələr üzərində iş gedir: "Yaxın vaxtlarda bununla bağlı da açıqlamalar veriləcək". Ə. İsmayılov qeyd edib ki, İqtisadiyyat Nazirliyi ilə bu yöndə mütəmadi müzakirələr aparılır: "Artıq jurnalistlərin narahat olduğu məqamlarla bağlı Vergi Məcəlləsinə dəyişiklik edilməsi üçün konkret layihə var. Həm "Media haqqında" qanun, həm də Vergi Məcəlləsinə dəyişikliklərin eyni anda qəbul olunmasını istəyirik. Vergilər Məcəlləsinə jurnalistlərə, media subyektlərinə 5 il müddətinə vergi güzəştləri edilməsi təklif olunur. Media subyektlərinin həm mənfəət, həm ƏDV-dən azad edilməsi təklif edilir. Bir sıra nazirliklərin fikirləri var və bu istiqamətdə iş aparılır. Sənəd tam hazır olduqdan sonra müzakirələrə təqdim ediləcək".

Ə. İsmayılov media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində işlərin davam edəcəyini vurğulayıb.

Azərbaycan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə KOBİA Medianın İnkişafı Agentliyi arasında müzakirələr davam etdirilir. Müvafiq qurumların media sahəsinin köməkxarakterli təklifləri dəyərləndirilməkdədir. Bunu da Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.

Ə.İsmayılov bildirib ki, media subyektlərinin güzəştli kreditlərdən yararlanması imkanının təmin olunması planlaşdırılır: "Eyni zamanda MEDİA və biznes subyektləri arasında platformanın yaradılması planlaşdırılır. Media dəstək layihələrinin yeni qaydaları hazırlanıb. 18 çap mediası ilə yanaşı ilk dəfə 39 veb-sayta maliyyə yardımının göstərilməsinə başlanılıb".

"Onlayn media subyektlərinə güzəştlərinin müəyyən edilməsi üzərində müvafiq nazirlikdə iş gedir" - deyən agentlik sədri bildirib ki, xarici ölkədə yerləşən serverlərin daxili DATA mərkəzə yerləşdirilməsi üçün müvafiq nazirlikdə İşçi qrup yaradılıb.

Ə. İsmayılov qeyd edib ki, hazırda çap mediası və onlayn mediaya dəstək göstərilir: "Bu dəstək yalnız inkişafa dəstək məqsədi daşımalıdır. Bununla bağlı monitorinqlər aparmışıq və nəticələr əlimizdə var. Maddi dəstək sırf inkişafa meylli olmalıdır. Bu maddi dəstək və vergi güzəştlərinin tətbiq olunması media subyektləri arasında rəqabətin formalaşmasına kömək edəcək. Bizim mediamız çoxdur və hamı da öz peşəkarlığını ortaya qoymaq istəyir. Biz bu imkanı onlara təqdim etmək istəyirik".

O diqqətə çatdırıb ki, jurnalistləri peşəkarlığının artırılması ilə bağlı da işlər gedir.

# "20-30 ilin məmurunu işdən çıxarır ki, öz komandamı yığmalıyam"

## Fazil Mustafa: "Bir də görürsən ki, rəhbərliyə gələn şəxs özünün sinif yoldaşını, dostlarını və yaxud qohumlarını işlə təmin etmək üçün müxtəlif bəhanələrlə təcrübəli şəxsi işdən azad edir"

***Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini, deputat Fazil Mustafa "Unikal" qəzetinə müsahibə verib. O, kadr dəyişiklikləri, bir sıra qanunvericiliklə bağlı yeniliklər və digər məsələlər barədə fikirlərini bölüşüb.***

***-Bu günlərdə dövlət başçısının imzaladığı sərəncamla Emin Hüseynov Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edildi. Gələcəkdə digər şəhər və rayonlarda da Prezidentin xüsusi nümayəndəsinin təyin olunacağı gözlənilirmi?***

-Qarabağ iqtisadi zonaları üzrə Azərbaycanın inzibati ərazi bölgüsündə dəyişiklik edilməsi ilə bağlı hansısa konsepsiya yoxdur. Sadəcə, ümumi qaydada Qarabağla bağlı danışıqların aparılmasında iştirak etmək üçün xüsusi nümayəndə təyin olundu. Nümayəndə bu mövzu ətrafında danışıqlarda Prezidenti təmsil edəcək. Bu hələ ki, yeni idarəetmə modelinin varlığından xəbər vermir. Yeni idarəetmə modelinə keçməklə bağlı bizim tərəfimizdən təkliflər səslənib. Təklif etmişdim ki, 14 iqtisadi rayonun sayını iki dəfə artıraraq, onun əsasında idarəetmə formasına keçilməlidir. Bütün səlahiyyətlər yerli özünüidarəetmə orqanı kimi bələdiyyələrə verilməlidir. İcra hakimiyyətləri isə bu yükdən azad olunmalı və daha çox dövlət orqanları arasında koordinasiya işini həyata keçirməlidirlər. Bu da rayonda yeni bir canlanmanın yaranmasına səbəb olar, yerli özünüidarəetmə inkişaf edər. İndi səlahiyyətsiz bələdiyyələr bu funksiyanı hansısa formada yerinə yetirmək imkanına sahib deyillər. Bələdiyyə institutunun dirçəlməsinə çalışmalıyıq.

***-Qanunda şəhid ailələri və qazilərlə bağlı müəyyən dəyişikliklər olunur. Növbəti ildə hansı dəyişikliklərin olmasını təklif edərdiniz?***

-Məlum olduğu kimi, Vergi Məcəlləsində dəyişiklik edildi. Şəhid ailələrinə yardım, onlardan hər hansı formada vergi tutulması aradan qaldırıldı. Xüsusilə, onların müalicəsi ilə bağlı verilən dəstək məsələsinə çox kömək edəcək. Bundan sonrakı dövrdə də bu istiqamətdə qanunvericilikdə xeyli dəyişikliklər olacaq. Çünki şəhid ailələri prioritet məsələ olaraq gündəmdədir. Qazi ailələrinə dəstək verilməsi, qazilərin işlə təmin olunması, onların vergi yükünün azaldılması, bank borclarının silinməsi və s. istiqamətlərində də xeyli iş görülüb, bundan sonra da görüləcək.

***-Parlamentin ötən ay keçirilən iclaslarından birində Xocalı və Xankəndiyə vəsaitin ayrılması məsələsinin də büdcədə əksini tapmalı olduğunu bildirdiniz. İstərdik bu barədə daha ətraflı fikirinizi bildirəsiniz...***

-Azərbaycanın dövlət büdcəsində Xocalı və Xankəndi kimi bölgələrimizə vəsaitin nəzərdə tutulması ilk növbədə siyasi cəhətdən vacibdir. Burada yaşayan ermənilər əgər Azərbaycan vətəndaşlığını qəbul edərlərsə, onların problemlərinin həlli istiqamətində bir sıra məsələlərin mümkün olacağını göstərmək baxımından olduqca vacibdir. Bu istiqamətdə hər hansısa bir yeni yanaşma olarsa, bizim həm də burada ərazi ilə bağlı bir sıra məsələlərdə layihələrin həyata keçirilməsində müəyyən təşviqedici addımlar atmağımız mümkündür. Bu vəsaitin daha çox Azərbaycan vətəndaşlığını qəbul etməklə bağlı stimullaşdırıcı bir addım olacağını düşünürəm. Belə ki, Xocalı, Xankəndi, Ağdərə Azərbaycanın ərazisidir. Ermənilərin orada yaşamasına baxmayaraq, oraya azərbaycanlılar da köçürülməlidir. İndidən büdcədə həmin ərazilərlə bağlı həssaslıq ortaya qoyulmalıdır ki, Azərbaycanın bu bölgələrlə bağlı ayrıca proqramı var.

***-Son vaxtlar gənclər bir çox sahələrdə rəhbər vəzifələrə təyin olunurlar. Sizcə, vəzifəyə təyin olunan gənclər etimadı doğruldurlarmı?***

-Bu yaxşı bir tendensiyadır. Amma yeniləşməyə hazır olan gənclərin, dövlət qurumlarında təcrübə toplamış gənclərin təyin olunması daha faydalıdır. Bizə daha çox gəncləşmə yox,



yeniləşmə vacibdir. Yeniləşə bilməyən hansısa bir gəncin təyin olunduğu sahəni yaxşı idarə etməyəcəyi ortadadır. Son illər vəzifəyə təyin olunan gənclər arasında etimadı doğruldan və doğrultmayanlar var. Bir sıra sahələrdə uğurlu təyinatı görmək mümkündür. Amma uğursuz hesab etdiyim təyinatlar da var. Bu, daha çox təcrübəsizlikdən və yaxşı niyyətin olmamasından irəli gələn situasiyadır. Ad çəkərək kimisə hədəfə götürmək istəmirəm.

***-Digər bir məsələ isə yeni gələn rəhbər şəxslər köhnə kadrları işdən çıxarır, əvəzində isə öz adamlarını işə götürür. Siz özünüz də iclasların birində bu məsələyə toxunmuşdunuz...***

-Yeni gələn rəhbər şəxslər tərəfindən bir sıra məmurların işdən azad olunması çox pis tendensiyadır. Azərbaycanda məmurların hüququnu qoruyacaq mexanizm yoxdur. Bu, təhlükəli haldır. Dövlət illərlə xərc çəkərək məmur yetişdirir, onun təcrübə toplamasına imkan yaradır. Bir də görürsən ki, rəhbərliyə gələn şəxs özünün sinif yoldaşını, dostlarını və yaxud qohumlarını işlə təmin etmək üçün müxtəlif bəhanələrlə təcrübəli şəxsləri işdən azad edir. Həmin şəxslərin hansısa bir formada məhkəmə ilə hüququnu qorumaq mexanizmi olmur. Çünki rəhbər şəxsin nüfuzundan çəkinərək məhkəmələr hansısa addım atmağa maraq göstərmirlər. Bu da üzücü bir haldır. Bununla bağlı ciddi tədbirlər görülməlidir. Əgər məmur hansısa qanunsuz yollarla işə götürülübsə, onu aşkarlayan faktlar varsa, buna reaksiya vermək olar. Amma 20-30 ilin məmurunu işdən çıxarırsan ki, bura təyin olunmuşam və öz komandamı yığmalıyam. Bu, yanlış bir yanaşmadır. Bu ənənəni yığışdırmaq lazımdır.

***Anar Kəlbiyev***

# Əbülfəs Qarayevin yarımçıq vədi...

## Həftənin sualı: bəs yeni Mədəniyyət naziri Anar Kərimov Bakı Dövlət Sirki ilə bağlı narazılıqları aradan qaldıra biləcəkmi?



***Yarım əsrdən artıq yaşı olan Bakı Dövlət Sirki bərbad vəziyyətdədir. Bu barədə məlumat verən valideyn Leyla Abdullayeva "Sputnik Azərbaycan"a bildirib ki, binadakı oturacaqlar istifadəyə yararlı deyil: "Zal həddən artıq soyuqdur. Qızım sirki çox sevdiyinə görə gətirdim, amma peşman oldum. Qarşıdan Yeni il gəlir, dünya ölkələrində sirklər maraqlı bayram şouları hazırlayır. Çox güman ki, bizdə də olacaq. Amma mən məcburam ki, övladımı bundan məhrum edim".***

Daha bir valideyn, Nazilə Əsgərova isə bildirib ki, xəstəliklərin baş alıb getdiyi dönəmdə Bakı Dövlət Sirkinin zalı əsl xəstəlik mənbəyidir: "Biletin qiyməti ucuz deyil. Buna baxmayaraq zal buz kimidir. Övladım da, mən də donmuşuq. Qorxuram ki, buradan çıxandan sonra ikimiz də koronavirusa yoluxarıq. Çünki zalda havalandırma sistemi yoxdur. Buranın təhlükəsizlik sistemi haqqında danışmağa belə dəyməz. Tualet isə daha bərbaddır".

Zalın vəziyyətindən gileylənən Aynur Hacımuradova bildirib ki, sirkdə nümayiş olunan nömrələr möhtəşəmdir. Amma istilik sistemində problem var: "Nömrələr, heyvanların olmamağı çox yaxşıdır, bəlkə, heyvanların incidilməsinə son qoyarlar. Amma oraya getmək istəyənlər mütləq qalın geyinməlidirlər".

Lalə Əliyeva da sözügedən problemdən şikayət edənlər sırasındadır: "Nümayiş olunan şoular əladır. Amma zal olduqca soyuqdur. İki ilə yaxın pandemiya oldu, həmin müddətdə təmir olunsaydı, bu gün proqrama rahatlıqla baxa bilərdik".

Məsələ ilə bağlı Bakı Dövlət Sirkindən bildirildi ki, istilik təchizatı ilə bağlı heç bir problem yoxdur: "Bina köhnə olduğundan zalı yetərincə qızdırmaq mümkün olmur. Təmizliyə gəldikdə isə zal mütləq tamaşadan əvvəl və sonra təmizlənir. Sadəcə insanlarımız təmizliyə riayət etmirlər. Natəmizliyi yaradanlar da insanlardır".

Xatırladaq ki, Bakı Dövlət Sirkinin hazırkı binası 1967-ci ildə istifadəyə verilib. Həmin binanın memarları Ənvər İsmayılov və Faina Leontyeva olub.

Mövcud problemlə bağlı Mədəniyyət Nazirliyinin incəsənət şöbəsindən isə deyilib ki, nazirlik teatr, tamaşa, konsertlərin bədii hissəsinə cavabdehdir. Qurumdan onu da bildirdilər ki, Dövlət İnvestisiya Xidmətindən gələn il üçün pul ayrılarsa, yeni bina tikmək planlaşdırılır.

Qeyd edək ki, sabiq mədəniyyət naziri Əbülfəs Qarayev 2019-cu ildə jurnalistlərə açıqlamasında bildirmişdi ki, Bakı Dövlət Sirkinin tikintisi ilə bağlı layihələr hazırlanır. O vəd vermişdi ki, ümumilikdə yeni sirk binası inşa olunacaq.

Lakin Qarayevin bir çox vədləri kimi yuxarıdakı vədi də quruca söz olaraq qaldı.

Düzdür, iddialara görə, Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə yeni binanın tikintisi üçün bir neçə ölkədən mütəxəssislər dəvət edilib. Layihədə bütün problemlər nəzərə alınacaq. Amma necə deyərlər, köhnə hamam, köhnə tas...

İndi gözlər yeni Mədəniyyət naziri Anar Kərimova dikilib. Onun Bakı Dövlət Sirkində tüğyan edən problemlərə həssaslıqla yanaşacağını güman etmək olar. Yəni təkcə sirkin binası ilə bağlı problem deyil, tamaşaların bilet qiymətlərindən tutmuş sirkin gəlirləri üzərində şəffaflığın artırılması kimi məsələlər də həllini gözləyir.

Onu da deyək ki, bu ilin martında Dövlət Sirkinə yeni direktor təyin olunub. Əmrə əsasən, Elmir Hüseynov sirkin direktoru vəzifəsinə təyinat alıb.

Elə yeni direktorun da sirklə bağlı narazılıqlara diqqətlə yanaşması və onun həlli istiqamətində konkret addımlar atması zərurətdir.

***Toğrul Əliyev***



# Məhkəmə: "Çayçı işləyirdim, Vidadi Muradov məni direktor təyin etdi"

***"Azərxalça" ASC-nin İdarə Heyətinin sabiq sədri, həbs edildikdən bir müddət sonra ev dustaqlığında vəfat edən Vidadi Muradovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.***

APA-nın xəbərinə görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən iclasda şahid ifadələri dinlənilib. Şahid qismində ilk olaraq "Azər-İlmə" MMC-nin direktoru işləyən Xəqani Talıbov ifadə verib. Şahidin ifadəsi zamanı məlum olub ki, o, direktor olana qədər şirkətdə çayçı işləyib: "Vidadi Muradov ilə qohum deyiləm, amma qohumdan yaxın, can-ciyər idik. Buna görə də kömək etdi direktor oldum. Vidadi Muradovun oğlu Aydın Muradov da mənim müavinimdir".

Şahidin ifadəsinə münasibət bildirən dövlət ittihamçısı nəyə görə Vidadi Muradovun oğlunu yox, onu direktor təyin etdiyini soruşub. Xəqani Talıbov ona cavab olaraq bunları deyib: "Hər hansı bir universitet bitirməmişəm, orta təhsilim var. Dediyim ki, mərhumla can-ciyər idik, ona görə də məni direktor təyin etdi. Hazırda da direktor işləyirəm. Möhtərəm hakim, inşallah, işə xitam verilsin yığışıb bir çay içərik".

Daha sonra şahid qismində özəl şirkətlərin birində icraçı direktor işləyən Yaşar Ələkbərov ifadə verib. Şahid bildirib ki, Vidadi Muradovun Həsən Əliyev küçəsində yerləşən evində də təmir işləri aparıblar. Həmin təmir zamanı da 800 min manatdan artıq vəsait xərclənib: "2018-ci ildə "Azərxalça"nın inşaat işlərində iş aparmaq üçün təkliflərimizi verdik. Bununla bağlı tender də keçirilməmişdi. ASC ilə müqaviləni də mən bağlamışam. Bundan sonra 13 müəssisədə aparılan işlərdə icraçı direktor olmuşam. İstintaq zamanı verdiyim ifadəni də təsdiq edirəm. İş həcmində olan çatışmazlıqlarla da razı deyiləm".

Məhkəmədə prokuror şahidin ifadəsinə etiraz edərək hazırkı ifadəsi ilə əvvəlki ifadələri arasında ziddiyyətlər olduğunu deyib: "Deyirsiz ki, mənimsəmə olmayıb, bəs necə olur, yazmısız ki, Şabranda yerləşən şirkətlərin birinə iki nasos quraşdırılıb, amma faktiki olaraq orda nasoslar yoxdur".

Bundan sonra ifadə verən müəssisə direktoru istintaq zamanı verdiyi ifadənin əsas götürülməsini xahiş edib. Şahid qeyd edib ki, sadəcə olaraq, baş podratçı müqaviləsində aparılan işlərin sifarişçi ilə razılaşdırılmaqla görülməsi göstərilib.

Dövlət ittihamçısı şahidə sual verərkən ondan istintaq zamanı "Vidadi Muradovun qanunsuz sifarişləri olurdu" ifadəsinə aydınlıq gətirməsini istəyib. Şahid bildirib ki, bütün işlər baxıldıqdan sonra görülüb, Vidadi Muradov ilə hər hansı pul bölünməsi olmayıb.

Daha sonra özəl şirkətlərdən birində direktoru işləyən Vüqar Yusifov ifadə verib.

Şahid bildirib ki, V. Muradov tərəfindən şirkətə əlavə işlər də gördürülüb. Hazırda da 973 min manatlıq iş aparılır.

"Azərxalça" ASC-də baş mühasib işləyən Fuad Eminov da istintaqa verdiyi ifadəni təsdiq etdiyini deyib: "Əvvəlki ifadəmi təsdiq edirəm. Mən satınalma işləri ilə maraqlanmamışam. Hazır sənədlər gəlirdi, mən də hazırlayıb pulu köçürürdüm.

Prosesdə ifadə verən qurumun dizayneri də istintaq zamanı verdiyi ifadəni təsdiq edərək bildirib ki, o, sadəcə yaradıcılıq işləri ilə məşğul olub.

Proses dekabrın 15-də davam etdiriləcək.

# Azərbaycanlı xanım direktor Avropa Şurasında komitə sədri seçildi

***Azərbaycanın Milli Antidopinq Agentliyinin (AMADA) direktoru, Avropa Şurasının gender bərabərliyi üzrə məruzəçisi Şəfəq Hüseynli Avropa Şurasında yaradılan Gender Bərabərliyi üzrə Xüsusi Komitəsinə sədrlik edəcək.***

AMADA-nın mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, Xüsusi Komitə Şəfəq Hüseynlinin müəllifi olduğu "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsini daha əhatəli formada həyata keçirmək və onun icrasını dəstəkləmək məqsədi ilə yaradılıb. Gender bərabərliyi Avropa Şurasının baş katibi Mariya Pejcinoviç Buriçin gündəliyində və strateji planında yer aldığından, Ş.Hüseynlinin bu layihəsinə böyük dəyər verilib və Xüsusi Komitənin yaradılması qərarlaşdırılıb.

Komitənin yaradılması ilə bağlı Ümumdünya Antidopinq Agentliyi üzrə xüsusi Avropa Komitəsinin (CAHAMA) 16-17 noyabr tarixində keçirilən 55-ci iclasında razılıq əldə edilmişdi. Belə ki, layihənin həm CAHAMA həm də Avropa Şurasının Antidopinq Konvensiyasının Monitorinq Qrupu çərçivəsində həyata keçirilməsi və bunun üçün Xüsusi Komitənin yaradılması məqsədəuyğun hesab edilmişdi. Beləliklə, Antidopinq sahəsində Gender Bərabərliyi üzrə Xüsusi Komitəsinin əsasnaməsi hazırlanaraq bütün üzv dövlətlərə təqdim edilmiş və Şəfəq Hüseynlinin sədrliyində Komitənin yaradılması yekdilliklə dəstəklənib.

Komitənin tərkibi sədr Şəfəq Hüseynli, CAHAMA və Avropa Şurasının Antidopinq Konvensiyasının Monitorinq Qrupunun təyin etdiyi 6 ölkənin nümayəndələrindən, Avropa İnsan Hüquqları Məhkəməsinin, Parlament Assambleyasının və onun Bərabərlik və Qeyri-Diskriminasiya Komitəsinin, İnsan Hüquqları və Gender Bərabərliyi Departamentinin, İdman haqqında genişləndirilmiş hüdudlu sazişin (EPAS) və İdman Konvensiyaları Bölməsinin nümayəndələrindən, habelə dəvət edilən müşahidəçi və ekspertlərdən ibarət olacaq.

Komitə "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsinin icrası çərçivəsində antidopinq təşkilatlarında və antidopinq üzrə dövlətlərarası qurumlarda gender balansı haqqında məlumatın toplanmasını həyata keçirəcək, təsis sənədlərinin və daxili qaydaları təhlil edəcək, aşkarlanan uyğunsuzluqların aradan qaldırılması, habelə gender bərabərliyinin gücləndirilməsi üçün tövsiyələr hazırlayacaq. Komitə layihənin effektiv şəkildə həyata keçirilməsi üçün Avropa Şurasının aidiyyəti digər komitələri, qrupları və üzv dövlətləri ilə əməkdaşlıq edəcək.

Komitənin fəliyyətinin və "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsinin icrasının yekunlarına dair hesabat və tövsiyələr hazırlanacaq və Avropa Şurası Nazirlər Komitəsinə təqdim ediləcək.

Qeyd edək ki Şəfəq Hüseynlinin müəllifi olduğu bu layihə Avropa Şurası Nazirlər Komitəsinin noyabrın 24-də keçirilən iclasında da dəstəklənmiş və CAHAMA-nın 2022-2025-ci illər üzrə əsasnaməsinə daxil edilmişdi.



## Şuşada iki nəfər minaya düşərək ölüb

***Şuşanın Daşaltı kəndində iki nəfər minaya düşərək ölüb.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, iki mülki şəxs mina partlaması nəticəsində həlak olub. Faktla bağlı prokurorluq əməkdaşları tərəfindən araşdırma aparılır.

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, dekabrın 9-da səhər saat 9 radələrində Şuşa rayonunun Daşaltı kəndi ərazisində bərpa və quruculuq işləri ilə məşğul olan şirkətlərin əməkdaşları - İsmayıllı rayon sakini Vüsal Qəndiyev və Qobustan rayon sakini Orxan Xanatov xidməti işlərini yerinə yetirərkən erməni hərbi birləmələri tərəfindən basdırılmış mina partlaması nəticəsində həlak olublar.

## Emin Əmrullayev STEAM-ın məqsədini açıqladı

***"STEAM-ın məqsədi ondan ibarətdir ki, şagirdlər bilik və bacarıqlarını nümayiş edə bilsin. Biz çalışırıq ki, daim nəbzi tutaq və elə davam edək".***

"Unikal" xəbər verir ki, bunu təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında bildirib.

Təhsildə texnologiyaların əhəmiyyətindən bəhs edən nazir bildirib ki, alətlərlə məqsədi qarışdırmaq olmaz: "Dron texnologiyaları məqsədlərdir. Məqsədlər şagirdlərdə həm fundamental, həm tətbiqi elmlərlə bağlı sahələri daha da dərindən öyrənməkdir. Texnologiya elə sürətlə dəyişir ki, iki il bundan əvvəl aldığımız texnologiyalar bu gün o qədər də müasir sayılmır. STEAM-ın məqsədi ondan ibarətdir ki, biz çalışırıq ki, daim nəbzi tutaq və elə davam edək".

## Ağdam və Cəbrayılda məktəb tikintisinin layihələndirilməsi aparılır

***"Şuşa şəhər 1 nömrəli məktəbin layihələndirmə prosesi yekunlaşıb, artıq tikintisinə başlanılacaq".***

"Unikal" xəbər verir ki, bunu təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, prosesin 2022-ci ilin sonuna qədər bitməsi gözlənilir: "Eyni zamanda Ağdam və Cəbrayılda da layihələndirmə prosesi başlayıb. Yəqin ki, yaxın zamanlarda Füzuli şəhərində də məktəb tikintisi ilə bağlı addımların atılması gözlənilir. Bu çox ciddi və böyük prosesdir. Həmin bölgələrdə məktəb layihələri ən yaxşı layihələrdəndir".

Nazir bildirib ki, həm Ağdam, həm də Şuşa məktəbi özünün müasirliyi və arxitektur inşaat xüsusiyyətlərinə görə ən müasir təhsil müəssisələrindən olacaq.

## Goranboyda vətəndaşların qəbulu keçirilib

***Goranboy rayon İcra Hakimiyyətində vətəndaşların növbəti qəbulu keçirildi.***

"Unikal" xəbər verir ki, Goranboy rayon İcra Hakimiyyətində vətəndaşların növbəti qəbulu keçirilib, onların müraciətləri dinlənilib. Rayon İcra Hakimiyyətinin Başçısı, müavinləri və şöbə müdirləri tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin yerində obyektiv araşdırılması ilə bağlı operativ və müntəzəm işlər görülür, Şəhid ailələri və qazilərin müraciətlərinə isə xüsusi diqqət göstərilir.

# Məleykə Abbaszadənin narazılıq yaradan qərarı

## DİM-in şişirdilmiş qiymətləri valideynləri və təhsil ekspertlərini "üsyan" etdirir

***Ötən həftə məlum oldu ki, Məleykə Abbaszadənin rəhbəri olduğu Dövlət İmtahan Mərkəzi (DİM) dekabrın 19-da qəbul imtahanlarına hazırlıq məqsədi ilə sınaq imtahanları təşkil edəcəyini açıqlayıb. DİM-in rəsmi saytında qeyd olunub ki, I, II,III, IV-ci qruplar üzrə imtahan verənlər 40 manat, III-cü ixtisas qrupu üzrə Coğrafiya fənnindən imtahan vermək istəyənlər isə əlavə olaraq 15 manat ödəniş etməlidir. Yəni III-cü ixtisas qrupunun abituriyentlərinə bir sınaq imtahanı 55 manata başa gələcək. Bakalavrlar isə magistratura sınaq imtahanında iştirak etmək üçün 50 manat ödəməlidirlər.***



DİM-in bu açıqlaması abituriyentlərin və tələbələrin narazılığına səbəb olub. Onların bir çoxu qurumun rəsmi "Facebook" hesabında yazıblar ki, qiymət baha olduğundan imtahanda iştirak etməyəcəklər. DİM-in bu qərarı valideynləri də çıxılmaz vəziyyətdə qoyub. "Övladımın təhsili üçün bu pulu ödəməyə məcburam" deyənlər olsa da, aydındır ki, imkansız ailələr belə yüksək ödənişi edə bilməyəcək.

Mövzu ilə bağlı "azpolitika.info"ya danışan təhsil eksperti Kamran Əsədov bildirib ki, sınaq imtahanlarının qiymətinin artması, qəbul imtahanlarının da ödənişini artıracaq: "Sınaq imtahanlarının qiyməti 4 il ərzində 20 dəfəyə yaxın bahalaşıb. Belə ki, 2016-cı ilə qədər bu imtahan 3 manat, 2018-ci ildə 20 manat, 2020-ci ildə 40 manat olub. Nə qədər resurs cəlb edilməyindən asılı olmayaraq sınaq imtahanının qiyməti 10-15 manatdan, qəbul imtahanı isə 20 manatdan çox ola bilməz. Nəzərə alsaq ki, DİM-in avadanlıqları, test bankları TQDK-dan qalıb, deməli, burada 55 manatlıq xərc yoxdur. Bundan başqa, qəbul imtahanından fərqli olaraq sınaq imtahanında mühafizə və digər xidmətlərdən istifadə olunmur. Hazırkı sınaq imtahanının büdcəsi bütün abituriyentlər üçün əlçatan deyil. Bu da çox sayda şagirdi öz bilik və bacarıqlarını yoxlamaq imkanından məhrum edir".

Ekspert qeyd edir ki, Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs olsa da, qurumun adının əvvəlində "dövlət" sözü var: "Əksər valideyn bu qiymətə övladını sınaq imtahanına göndərə bilmir. Onlar DİM-in xidmət haqlarının baha olduğunu bildirirlər. Ölkədə rəsmi imtahan keçirən yeganə qurum DİM-dir. Nəticədə qiymətlər və imtahan nəticələriylə bağlı istədiyi qərarı qəbul edə bilir. Bu sahədə mütləq alternativ bir qurum da imtahanlar təşkil etməlidir. DİM-in keçirdiyi müxtəlif təyinatlı imtahanlarda yüz minlərlə insan iştirak edir və bu quruma kifayət qədər gəlir gətirir".

Göründüyü kimi, DİM-in imtahan qiymətlərini bahalaşdırması üçün ciddi əsas yoxdur, baxmayaraq ki, qurum öz qərarını publik hüquqi şəxs olduğu üçün dövlət büdcəsindən maliyyələşməməsi ilə əsaslandırır.

Yerli medianın yazdığına görə, 2020-ci ildə sınaq imtahanının qiymətinin iki dəfə artırılması, DİM-in gəlirlərinə müsbət təsir göstərib. Qurumun rəsmi saytında qeyd olunub ki, 2020-ci ildə ümumi mənfəəti 2 milyon 996 min manat olub. Bu məbləğ, 2019-cu ildəki gəlirdən, (həmin il imtahanın qiyməti 20 manat idi) 5 dəfə çoxdur. KİV-lər haqlı olaraq vurğulayırlar ki, görünür, bu gəlir Dövlət İmtahan Mərkəzini hələ tam qane etməyib ki, qurum etirazlara məhəl qoymadan bahalı imtahanlar keçirməkdə davam edir. Bu isə valideynlərin haqlı narazılığına səbəb olur.

Problemin başqa tərəfi də var. "Unikal" qəzetinin araşdırması nəticəsində ortaya çıxıb ki, DİM imthan qiymətlərini qaldırdıqca özəl kurslar da eyni addımı atır, öz qiymətlərini Məleykə Abbaszadənin rəhbəri olduğu qurumun qiymətlərinə uyğunlaşdırırlar. Bir vaxtlar sınaq imtahanları vur-tut 5 manat olduğu halda indi bu rəqəm ən azı 2-3 dəfə bahalaşıb.

Ekspertlərin fikrincə, problemin həlli üçün Dövlət İmtahan Mərkəzi daha tez-tez sınaq imthanları keçirməli və qiymətləri 50% azaltmalıdır. İmtahanlar tez-tez keçirilərsə, qiymətlər azalarsa, bu proses kurslarda olan qiymətlərə də hökmən təsir göstərəcək.

Onu da deyək ki, DİM son zamanlar özünün hazırladığı əlavə dərs vəsaitlərinin, qiymətləndirmə tapşırıqlarının, sual kitabçalarının da qiymətini kəskin artırıb. Bu da valideynlərdə haqlı narazılıq doğuran başqa bir məqamdır.

Ümid edək ki, Məleykə xanım bütün bu narazılıqları nəzərə alacaq və DİM şişirdilmiş qiymətlərinə yenidən baxacaq...

***Sənan Mirzə***

# AQTİ əməkdaşlığa dair memorandumu imzaladı

***Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu (AQTİ) ilə Polşa Respublikasının Milli Baytarlıq Araşdırma İnstitutu arasında qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.***

"Unikal" xəbər verir ki, Memoranduma əsasən, iki qurum arasında heyvan sağlamlığı sahəsində əməkdaşlığın genişləndirilməsi, təcrübə mübadiləsinin həyata keçirilməsi nəzərdə tutulur.

Memorandumun əsas məqsədi heyvan sağlamlığının və rifahının təmin olunması, insan və heyvan sağlamlığına təhlükə yarada bilən zoonoz xəstəliklərin yayılmasının qarşısının alınması və mübarizə tədbirlərinə dair məlumat mübadiləsi, qarşılıqlı maraq kəsb edən problemlərin araşdırılması və tədqiqi sahəsində əməkdaşlığı genişləndirməkdən ibarətdir.

Həmçinin memoranduma əsasən, heyvan xəstəlikləri (bakterial, viral və s.) üzrə elmi tədqiqatlar və müasir laborator-diaqnostik müayinələr, heyvan mənşəli qidaların gigiyenasına və heyvan yemi gigiyenasına nəzarət qaydaları, müasir diaqnostik üsullar və heyvan mənşəli məhsulların baytarlıq müayinəsi, heyvanların yoluxucu xəstəlikləri üçün diaqnostik analizlərin təsdiqlənməsi və qarşılıqlı maraq kəsb edən digər istiqamətlər üzrə təcrübə mübadiləsi planlaşdırılır.

# Cavanşir Feyziyev Rüfət Quliyevə rəqib oldu

## İki deputat siqaret biznesində rəqabətə başlayır



***Bu günlərdə “Azərbaycan Sənaye Korporasiyası” ASC-yə məxsus “Azərtütün” ASC-nin 85 faizlik səhm paketinin özəlləşdirilməsinə dair investisiya müsabiqəsinin nəticəsi açıqlandı. Məlum oldu ki, həmin səhm paketinin əldə edilməsi üzrə müsabiqənin qalibi “Tabaterra Leaf” QSC adlı şirkətdir. Şirkət səhm paketi üçün 17 milyon 281 min 464 min manat ödəməlidir, habelə daha 6.3 milyon manat dövlət büdcəsinə ödəyəcək və ümumi həcmi 8 milyon manatdan az olmamaqla investisiya proqramını təqdim edəcək.***

“Azərtütün” ASC vaxtilə Azərbaycan Beynəlxalq Bankının kreditləri hesabına yaradılmış “İnter Tobaco” MMC tütün istehsalı və emalı müəssisəsinin əsasında 2018-ci ildə yaradılıb. “İnter Tobaco” MMC-nin əmlakı-1 tütün emalı zavodu və 4 tütün qurutma məntəqəsi götürülmüş kreditlərin əvəzində Beynəlxalq Banka girov qoyulmuşdu. Sonradan həmin kreditlər qaytarılmadığı üçün girov əmlak bankın kreditləri hesabına yaradılmış digər biznes aktivləri kimi “Aqrarkredit” QSC-yə (2015-ci ildə yaradılıb və Beynəlxalq Bankın toksik aktivləri bu səhmdar cəmiyyətin balansına keçirilib -red.) verilmişdi.

“Azərtütün” ASC bu ilin aprel ayında prezidentin sərəncamı ilə özəlləşdirməyə açılıb. Sərəncamda deyilirdi ki, cəmiyyətin özəlləşdirilməsi investisiya müsabiqəsi vasitəsilə həyata keçiriləcək, özəlləşdirilmədə yerli investorlarla yanaşı xarici investorlar da iştirak edəcək. Səhmlərin satışı üzrə investisiya müsabiqəsi isə bu ilin oktyabrında elan olunmuşdu.

“Azərtütün Aqrar Sənaye Kompleksi” MMC -nin nizamnamə kapitalı 22 milyon 257 min 298,41 manat qiymətləndirilib. Onun balansında Balakən, Zaqatala, Qax və Şəkidə 266 ədəd müasir qurutma kamerası, anbarlar, ofislər, tütün istehsalı və emalı üzrə 4 məntəqə, Zaqatalada tütün emalı üzrə bir zavod fəaliyyət göstərir.

Bəs “Azərtütün ASK”-nın 85 faizlik səhm paketini alan şirkət barədə nə məlumdur? Yerli medianın yazdığına görə, “Tabaterra Leaf” QSC bu ilin aprel ayının 24-də (təsadüfən “Azərtütün”ün özəlləşdirməyə açıldığı vaxtlarda) dövlət qeydiyyatına alınıb. QSC Sumqayıt şəhəri, Sülh küçəsi, 18 ünvanında - “Xovlu İpək Fabriki”nin ərazisində qeydiyyatdan keçib. QSC-nin nizamnamə kapitalı 5 min manat, qanuni təmsilçisi isə Elman Bəşir oğlu Cavanşirdir. Elman Bəşir oğlu Cavanşir həm də ölkənin aparıcı siqaret istehsalçısı olan “Tabaterra” QSC-nin qanuni təmsilçisidir. Nizamnamə kapitalı 78 milyon 10 min manat olan “Tabaterra” QSC 2017-ci ildə dövlət qeydiyyatına alınıb.

Şirkət həmin ildə də Sumqayıt Kimya Sənaye Parkında rezidentir və tütün məmulatları istehsalı fabrikini açıb. “Tabaterra” fabrikində 3 formatda olmaqla beynəlxalq standartlara uyğun siqaret istehsal edilir. Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında qurulan fabrikdə il ərzində 11 milyard ədəd 3 növdə filtrli siqaretlər istehsal edilir. Layihənin dəyəri 50 milyon dollara yaxındır. Fabrikin açılışı zamanı deyilirdi ki, “Tabaterra” ölkənin tütün məmulatlarına olan tələbatının 80 faizini qarşılaya biləcək gücdədir.

“Tabaterra Leaf” şirkətinin qanuni təmsilçisi kimi qeydiyyatdan keçmiş Elman Bəşir oğlu Cavanşir “Avromed” şirkətinin rəhbəri, deputat, adı Böyük Britaniyada çirkli pulların yuyulması qalmaqalına (onun və ailə üzvlərinin çoxmilyonluq bank hesablarına həbs qoyulub,-red.) görə son zamanlar gündəmə gələn Cavanşir Feyziyevin qardaşı oğludur. “The Evening Standard” qəzeti yazmışdı ki, Böyük Britaniyanın Milli Kriminal Agentliyinin tələbi ilə bank hesabları dondurulan Feyziyev ailəsinin üzvlərindən biri də Elman Cavanşirdir, onun bank hesabında 1 milyon funt sterlinqdən bir az çox vəsait aşkar edilmişdi. Elman Cavanşir deputatın çoxşaxəli biznes imperiyasını idarə edənlərdən biridir.

Yəni görünən odur ki, C.Feyziyev artıq siqaret biznesinə də girişib və tezliklə bu sahədə bazarın ən önəmli oyunçularından birinə çevriləcək.

Maraqlıdır ki, həmin sahədə hazırda başqa bir deputat inhisarçı mövqeyə sahibdir. Söhbət Rüfət Quliyevdən gedir. O, Bakı Tütün Kombinatının nəzdində yaradılan və 2000-ci ildən siqaret istehsalına başlayan “European Tabacco Baku” ASC-nin İdarə Heyətinin sədridir. Bu şirkət ölkədə siqaret istehsalı ilə məşğul olan iki yerli şirkətdən biridir. Vaxtilə Rüfət Quliyev etiraf etmişdi ki, Azərbaycanda bazarın siqaret tələbatının 25-27 faizini onlar təmin edirlər. Lakin ticarət sektorundakı mənbələr bu rəqəmin minimum 50 faizdən çox olduğunu iddia edirdilər.

İndi isə bazara başqa bir deputatın qeyri-rəsmi nəzarətindəki şirkət daxil olur, bu isə iki millət vəkilinin siqaret biznesində ciddi rəqabətə daxil olduğunu proqnozlaşdırmağa əsas verir.

***Gülayə***

## Anar Kərimov ICESCO-da Qarabağdakı mədəni abidələrimizdən danışdı

***Misirdə rəsmi səfərdə olan mədəniyyət naziri Anar Kərimov ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Misirin Ali təhsil və elmi araşdırmalar naziri Xalid Əbdülğaffar və Baş müftisi Şövqi Allam ilə görüşüb.***

Mədəniyyət Nazirliyindən “Unikal” a verilən məlumata görə, hazırda isə mədəniyyət nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti səfər çərçivəsində ICESCO-nun Baş Konfransının 14-cü sessiyasında iştirak edir.

İclas zamanı çıxış edən A. Kərimov tarixi torpaqlarımız olan Qarabağda 30 illik işğal müddətində dağıdılmış, məhv edilmiş maddi və mənəvi irsimiz, tarixi abidələrimiz, dini məbədlərimiz barədə geniş təqdimatla birgə iştirakçılara məlumat verib. Həmçinin Qarabağ ərazisində yerləşən muzeylərimizə qarşı törədilən mənəvi terrordan da söz açaraq, erməni işğalçılarının oğurladığı, talan etdiyi eksponatların acı taleyindən bəhs edib.

O, həmçinin Azərbaycanın təşəbbüsü ilə 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə irəli sürülmüş Bakı Prosesi barədə söz açıb. Bakı prosesinin davamı kimi “Mədəniyyət naminə sülh” (Peace4Culture) qlobal təşəbbüsünün də əsasının qoyulduğunu bildirib. Bölgədə davamlı sülhün təmin edilməsi və mədəniyyətin dirçəlməsi üçün bu təşəbbüsün önəmini vurğulayıb. Torpaqlarımız işğaldan azad olunandan sonra Azərbaycan dövləti tərəfindən geniş miqyaslı bərpa və quruculuq işlərinin başlanıldığı, xüsusilə də tarix və mədəniyyət abidələrinin, o cümlədən məscidlərlə yanaşı, xristian kilsələrinin də bərpa edildiyi diqqətə çatdırıldı.

Nazir ICESCO və onun Baş Katibinə bu görülən işlərdə dəstəyinə görə təşəkkürünü bildirdi və təşkilatın güclənməsinə, səmərəliliyinin artırılmasına yönələn islahatları alqışladı.

## Agentlik sədri: "Bəzi media feyk xəbərlərlə reytinq toplamağa çalışır"

***”Bəzi media subyektləri feyk xəbərlərlə reytinq toplamağa çalışır ki, bu da peşəkar media subyektlərin fəaliyyətinə mənfi təsir edir”.***

Bunu Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib. O bildirib ki, peşəkar media subyektləri birgə səylər göstərərək bu cür mənfi halların qarşısını ala bilir: ”Biz cəmiyyətimizi çaşdırıcı informasiyalardan qorumalıyıq. Peşəkar media subyektləri olaraq cəmiyyətin məlumatlılığını artırmalıyıq”.

Ə.İsmayılov qeyd edib ki, onlayn mediada standartlar da hazırlanacaq: “Strateji planlaşdırma istiqamətində də iş gedir. Onlayn media sahəsində reklam işinin optimallaşdırılması və potensialının gücləndirilməsi istiqamətində xüsusi layihə konsepti - MediaAd hazırlanacaq”.

## "Epidemik prosesin nəzarət altında olması sevindiricidir" - Təyyar Eyvazov

***”Artıq iki ilə yaxındır ki, yeni koronavirus infeksiyası ilə mübarizə aparırıq. Bu aylar ərzində hər birimiz öz həyatında bu infeksiyanın təsirini bu və ya digər dərəcədə hiss etməkdədir”.***

Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov deyib. O qeyd edib ki, bu müddət ərzində xəstəlik haqqında bilgilər xeyli genişlənib, virusa yoluxmadan özümüzü və yaxınlarımızı qorumaq üçün səfərbər olmuşuq:

”Dövlətimiz infeksiyaya qarşı bütün zəruri tədbirləri həyata keçirir. Bu durumdan qalib çıxmaq üçün vətəndaş məsuliyyətinin nə qədər gərəkli olduğunu da anladıq. Birgə işlərimiz öz töhfəsini verməkdədir. İnfeksiyanın yayılması üçün əlverişli olan payız-qış mövsümündə olsaq da, epidemik prosesi nəzarət altına almağımız hər birimiz üçün sevindiricidir. Bunun əksinə olaraq yaxın və uzaq qonşuluğumuzdakı bir çox ölkələrdə vəziyyətin heç də ürəkaçan olmadığını görürük. Bu bizlərə bir daha arxayınlaşmamağı, əldə edilənləri qoruyub çoxaltmağı diktə edir”.



# Azərbaycana narkotik keçirmək istəyən şəxs sərhədçilərimizə hücum etdi

***Son günlərdə Dövlət Sərhəd Xidməti (DSX) Sərhəd Qoşunlarının "Horadiz", "Göytəpə" və "Şəmkir" sərhəd dəstələrinin əməkdaşları təxmini çəkisi 20 kiloqram 855 qram narkotik vasitəyə, 2400 ədəd psixotrop və 4519 ədəd müxtəlif təyinatlı dərman preparatlarına bənzər maddələrin dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə Azərbaycana keçirilməsinin qarşısını alıb.***

DSX-nin Mətbuat Mərkəzindən "Unikal"a verilən məlumata görə, noyabrın 24-də saat 17:30 radələrində Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Biləsuvar rayonunun Amankənd kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində sahibsiz halda aşkarlanmış 1 ədəd qara rəngli bağlamanın içində ümumi çəkisi 900 qram "metamfetamin" narkotik vasitəsinə bənzər maddə aşkar olunaraq götürülüb.

Növbəti gün saat 02:55 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun Əmirzeyidli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində içərisində 4 nəfərin olduğu sarı rəngli "Vaz" markalı 10-DZ-092 dövlət nömrə nişanlı avtomobilin əraziyə yaxınlaşması və nəqliyyat vasitəsindən iki nəfərin düşərək özlərini şübhəli aparmaları sərhəd naryadının diqqətini cəlb edib.

Sərhəd naryadının "Dayan" əmrinə tabe olmayaraq, ərazidən bağlama götürüb avtomobillə hadisə yerindən uzaqlaşmağa cəhd edən şəxslər Daşburun dairəsi istiqamətində saxlanılıblar. Onların Bakı şəhər sakinləri 1975-ci il təvəllüdlü Bədəlzadə Azər Araz oğlu, 2004-cü il təvəllüdlü Bədəlov Araz Azər oğlu, 1990-cı il təvəllüdlü Abdullayev Əfqan Fazil oğlu və Beyləqan rayon sakini 1976-cı il təvəllüdlü Allahverdiyev Elşən İnşallah oğlu olmaları müəyyənləşdirilib, avtomobilə baxış zamanı bir ədəd bağlamanın içərisində ümumi çəkisi 6 kiloqram 400 qram narkotik vasitəyə bənzər maddə (100 qram "tiryək", 600 qram "heroin", 5200 qram "marixuana", 500 qram metamfetamin)və 2000 ədəd "tramadol" həbi aşkar olunaraq götürülüb. Saxlanılan şəxslərdən əvvəllər narkotik vasitənin istifadəsinə görə məhkum olunmuş A.Bədəlzadə sərhədçilərə qarşı müqavimət göstərərək bıçaqla xəsarət yetirməyə çalışarkən tərkisilah edilib.

Noyabrın 29-da saat 01:00 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Füzuli rayonunun Əhmədalılar kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində naməlum şəxs tərəfindən İran İslam Respublikasından Azərbaycan istiqamətində dövlət sərhədinin pozulması cəhdinin qarşısı alınmış, sərhəd pozucusu əlindəki qaçaqmalı yerə ataraq havanın qaranlıq, ərazinin sıx qamışlıq və relyefin mürəkkəb olmasından istifadə edərək geriyə qaçmışdır. Əraziyə baxış zamanı aşkar olunmuş 1 ədəd bağlamadan təxmini çəkisi 11 kiloqram 200 qram narkotik vasitəyə bənzər maddə (8000 qram "heroin", 3000 qram "marixuana", 200 qram "metamfetamin") götürülmüşdür.

Həmin gün saat 02:05 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin Qazax rayonunun Sınıq körpü adlanan ərazisi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində Kür çayında Gürcüstandan Azərbaycana doğru 1 ədəd rezin qayığın hərəkəti sərhəd naryadı tərəfindən müşahidə edilib. Sərhəd naryadının "Dayan" əmrinə tabe olmayan qayıqdakı şübhəli şəxslər özlərini suya atıb və havanın qaranlıq olmasından istifadə edərək hadisə yerindən qaçmağa nail olublar. Qayığa baxış zamanı içərisində 4519 ədəd müxtəlif çeşidli dərman preparatları aşkar olunaraq götürülüb.

Dekabr ayının 6-da saat 20:10 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun Əmirzeyidlikəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində özünü şübhəli apararaq sərhəd naryadının diqqətini cəlb etmiş 1 nəfər naməlum şəxs ərazidən uzaqlaşmağa cəhd göstərərkən saxlanılıb.

Sumqayıt şəhər sakini 1984-cü il təvəllüdlü Əzimov Pərviz Əzim oğlu olması müəyyənləşdirilmiş şəxsin üzərinə baxış keçirilərkən 1 ədəd bağlamanın içərisində təxmini çəkisi 2 kiloqram 355 qram narkotik vasitəyəbənzər maddə(130 qram "heroin", 1925 qram "marixuana", 300 qram metamfetamin) və 400 ədəd"gabapentin-300"həbi aşkar olunaraq götürülüb.

Qeyd olunan faktlar üzrə əməliyyat-istintaq hərəkətləri davam etdirilir.

# İntiqam Babayevin "vurulması"ndakı sirr...

## Sabiq nazir müavini ilə bağlı çoxsaylı korrupsiya iddiaları var

***Bu ilin sentyabrında Gənclər və İdman naziri vəzifəsinə təyin edilən Fərid Qayıbovun kadr islahatları davam edir. Ötən həftə nazirliyin "köhnələrindən" olan iki önəmli vəzifə sahibi - nazir müavinləri postlarından kənarlaşdırıldı. Bunlardan biri İsmayıl İsmayılov, digəri isə İntiqam Babayev idi. Keçən sayımızda İsmayıl İsmayılovun "vurulması" barədə ətraflı bəhs etmiş və onun fəaliyyətindəki neqativ hallar, xüsusilə biznesi barədə ilginc məqamlara toxunmuşduq.***



Bu dəfə isə İntiqam Babayev barədə danışacağıq.

1994-cü ildə Bakı Gənclər Klubunun prezidenti olan İ.Babayevin karyera yüksəlişi xeyli sürətli baş verib. O, rəhbərlik etdiyi ictimai birlikdə prezident təsisatını yaratması onun gələcək iddialarından xəbər verirdi. Həmin vaxt "Tarixçi tələbələrin Elmi Cəmiyyəti"nin İdarə Heyətinin üzvü olan gələcək nazir müavini cəmi bir il sonra o zaman ölkənin ən böyük kollektiv gənclər platforması olan - Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) sədri seçilir. Paralel olaraq Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının müəllimi kimi fəaliyyət göstərir. Nəhayət, 1998-ci ildə yolunu Gənclər və İdman Nazirliyindən salır. Bu nazirlikdə Gənclər təşkilatları ilə iş şöbəsinin müdiri təyin olunur. Bir il sonra isə vəzifəsindən azad olunur. Bakı şəhər İcra Hakimiyyətinin Siyasi partiyalar və ictimai təşkilatlarla iş şöbəsinin müdiri vəzifəsinə təyinat alır. Ardınca isə Gənclər və İdman nazirinin müavini postuna yüksəlir.

İntiqam Babayevlə bağlı xoşagəlməz iddialardan biri də odur ki, nazirlikdə QHT-lərlə və idman federasiyaları ilə işi kurasiya edən sabiq müavin hansısa (!) səbəbdən bir neçə deputatın himayəsindəki qeyri-hökumət təşkilatlarını böyük bir "səxavət"lə maliyyələşdirməkdədir. Həmin millət vəkilləri arasında Şahin İsmayılov, Vüqar İsgəndərov, Nigar Arpadari, Könül Nurullayeva var.

Bundan başqa, Babayev vəzifədə olarkən ayrı-ayrı şəhər və rayonlarda yaradılan Gənclər Evlərini də nəzarətində saxlayıb, həmin Gənclər Evlərinin fəaliyyətinin maliyyələşdirilməsi adı altında isə böyük məbləğdə pullar "silinib".

Sabiq nazir müavini vəzifədə olduğu müddətdə özünə dəbdəbəli həyat və geniş biznes qurmağa nail olub. Belə ki, onun paytaxtın "milyonçular məhəlləsi" kimi tanınan Teymur Əliyev küçəsində, eləcə də digər mərkəzi yerlərində mənzillərinin, Novxanıda təmtəraqlı villasının olduğu deyilir.

İ.Babayevin barəsində bir sıra korrupsiya iddiaları da mövcuddur. Məsələn, 2018-ci ildə Gənclər və İdman Nazirliyi Qəbələ rayonunda ənənəvi keçirilən "Tarixin Canlı Səhifələri" adlı festival təşkil edib. Tarixi səhnələrin canlandırılması ilə müşayiət olunan genişmiqyaslı tədbirin təşkilatçısı kimi rəsmi sənədlərdə 25 yaşlı Tərxan Əhmədzadə göstərilib. Festivalın keçirilməsi üçün nazirlik həmin şəxsə 400 min manat büdcə ayırıb. Lakin sonradan Tərxan Əhmədzadə nə Qəbələ rayonunda keçirilən festivaldan, nə də bunun üçün ayrılan böyük məbləğdən məlumatı olduğunu deyib: "Mən aldadılmışam. Onlar pula ehtiyacı olan gəncləri tapır, 50-100 manat ödəməklə adlarına firmalar təsis edir, sonra həmin firmalar vasitəsilə öz işlərini görürlər. Mənim adıma hansı şirkətlərin qeydiyyatdan keçdiyini və ümumiyyətlə nə etdiklərini bilmirəm!"

Araşdırma zamanı "Tarixin Canlı Səhifələri" festivalı üçün 200 min manatın "Degree Group" şirkətinə köçürüldüyü üzə çıxıb. Nizamnamə kapitalı 5 (!) manat olan bu şirkət Qəbələdəki festivaldan bir neçə ay əvvəl Tərxan Əhmədzadənin adına qeydiyyatdan keçirilib və bundan sonra Gənclər və İdman Nazirliyi tərəfindən rəsmən elan edilən bir tenderdə iştirak edib. Məlum olur ki, Tərxan Əhmədzadə ayrılan pulu da, "Degree Group" şirkətinin əsl direktorunu da görməyib. "Degree Group"un rəhbəri eyni zamanda "Vegas", "Talent", "Chima-TT" və "Sandoz" şirkətlərinə də sahibdir. Bu şirkətlərin vergi borclarının məbləği 20 min manata çatır.

Sayca səkkizinci "Tarixin Canlı Səhifələri" festivalının təşkili ilə bağlı da ilginc iddialar irəli sürülüb. Bildirilib ki, "Little Cobra" və "Blekko" bu məqsədlə təşkil olunan tenderin qalibi olub və onlara ümumilikdə 362 490 manat məbləğində vəsait köçürülüb. Adıçəkilən bu şirkətlərin də barəsində geniş məlumat yoxdur. Bircə o bəllidir ki, "Little Cobra"nın rəsmi direktoru Rəsulzadə qəsəbəsində yaşayan 27 yaşlı Vaqif Hüseynzadədir. "Blekko" şirkəti isə Şərifzadə küçəsi, bina 192, mənzil 64 ünvanında qeydiyyatdadır. Bu ünvan üzrə daha 12 şirkət qeydiyyata alınıb Həmin şirkətlər Orxan Rafiq oğlu Əhmədov, Yusif İdris oğlu Məhərrəmov, Kazım Mahir oğlu Şamiyev, Elnur Heydər oğlu Əliyev və Teymur Rafiq oğlu Ağakişiyevin adına rəsmiləşdirilib. Ən qəribəsi isə odur ki, araşdırmalar zamanı 12 şirkətin qeydiyyat ünvanı olaraq göstərilən bina bir müddət əvvəl pilot layihənin icrası ilə əlaqədar sökülmüş evdir!

Nəzərə alsaq ki, bu günədək 8 dəfə keçirilən sözügedən festivalın təşkilinə nəzarət İntiqam Babayevdə olub, o zaman baş verənlərdə sabiq nazir müavininin məsuliyyəti də ortaya çıxır. Ümumiyyətlə isə ciddi təftiş aparılacağı halda onun fəaliyyətində çoxsaylı başqa şübhəli məqamların da aşkarlanacağı iddia edilir.

Bütün bunları nəzərə aldıqda həm İ.Babayevin, həm də digər sabiq müavinin - İ.İsmayılovun vəzifələrindən kənarlaşdırılması təəccüblü görünmür. Maraqlıdır, bəs onların fəaliyyət dövrü necə, yoxlanılacaqmı? Yəqin ki, bu sualın cavabı zamanla aydınlaşacaq...

***Toğrul Əliyev***

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Təhsil Tələbə kreditlərinin verilməsi nəyi dəyişəcək?

## Kamran Əsədov: "Təhsil tələbə kreditləri ilə bağlı qaydalar təkminləşdirilməlidir".

***Azərbaycanda uzun illərdir ən çox müzakirə olunan məsələlərdən biri də, təhsil haqqını ödəyə bilməyən tələbələrə təhsil kreditlərinin verilməsi ilə bağlı idi ki, bu da öz həllini tapdı. Artıq noyabrın 25-dən təhsil tələbə krediti üçün müraciətlərin qəbuluna başlanılıb. Təhsil tələbə kreditlərinin verilməsi yenilik olsa da, şərtlərlə bağlı müəyyən narazılıqlar var. Təhsil naziri Emin Əmrullayev tələbə təhsil kreditləri ilə bağlı səsləndirilən narazılıqlara münasibət bildirib. Nazir qeyd edib ki, artıq bir neçə yüz tələbə prosesi tam olaraq yekunlaşdırıb, bəzilərinə hətta təsdiq də verilib:***

"Kreditlərin verilməsi ilə bağlı narazılıqlar bir neçə qismə bölünür. Sistem yeni olduğundan hər hansı çatışmazlıqların, qüsurların, nöqsanların olması gözlənilən-dir. Təbii ki, bunların aradan qaldırılması labüddür. Hesab edirəm ki, həmin problemlər zamanla aradan qaldırılacaq".

"18 yaşından aşağı olan tələbələrin kredit alması ilə bağlı narazılıq həllini tapır. Bəzi narazılıqlar isə anlaşılmazlıqla bağlıdır. Sosial problemi olanlar sosial kreditə, sosial problemi olmayanlar isə daha yüksək bal yığıb standart güzəştlərdən yararlana bilər. Bu kreditlər sosial alətlərdir. Zamanla cəmiyyətlə birgə çalışaraq vəziyyəti düzgün normal şəkildə təmin edə bilərik", - E.Əmrullayev vurğulayıb.

Ekspertlər isə Təhsil tələbə krediti şərtlərinin yumşaldılmalı olduğu qənaətindədirlər.

Təhsil eksperti Kamran Əsədov deyir ki, kreditin verilməsi şərtlərində bir neçə ciddi nöqsan var. Onun sözlərinə görə, tələbə krediti almaq üçün www.e-ttkf.edu.az portalı vasitəsi ilə müraciət etmək tələb olunur. Bunun üçün isə tələbə "asan login"ə malik olmalıdır. Həmçinin portaldan qeydiyyatdan keçmək üçün müraciət edənin adına mobil nömrə olmalıdır. Amma ölkədə 18 yaşından aşağı olan şəxslərə mobil nömrə satılmır. Bu isə 18 yaşa çatmayan tələbələrə əngəl törədir: "Ümumi orta təhsil bazasından kollecə qəbul olan tələbənin 15 yaşı var. Bu tələbələr öz adlarına nömrə ala bilmirlər. Mobil operatorlar isə yalnız valideynlərinin birinin notarial təsdiq edilmiş razılığından sonra 18 yaşından aşağı şəxsə mobil nömrə satırlar. Şərtə görə, www.e-ttkf.edu.az portalında müraciət etmək üçün notarial qaydada təsdiq edilən arayış alınmalıdır. Bunun üçün isə tələbələr dövlət rüsumu ödəməlidirlər. Bu da tələbələr üçün əlavə xərcdir".



K. Əsədov deyir ki, qaydalara görə, tələbənin akademik borcunun olmaması və onların ümumi orta müvəffəqiyyət göstəricisi 71 baldan yüksək olması tələb olunur. Amma K.Əsədov deyir ki, hazırda ölkədə 126 min tələbə özü təhsil haqqını ödəyir: "Bu zaman onların hamısı Təhsil tələbə krediti üçün müraciət edə bilməyəcək. Yalnız 56 min tələbənin müraciət etmək imkanı olacaq. Çünki digərlərinin akademik borcları - kəsrləri var, ya da akademik göstəriciləri 71 baldan aşağıdır".

Ekspert söyləyir ki, halbuki tələbənin kəsrinin olması normaldır. Əgər bütün tələbələr yüksək elmi potensiala malik olsaydılar, ödənişli əsaslarla təhsil almazdılar. Onun sözlərinə görə, Təhsil tələbə krediti üçün yalnız əyani təhsil alanlara müraciət etmək imkanının yaradılması qiyabi təhsil alan tələbələrin bu yenilikdən istifadəsinə mane yaradır.

K.Əsədov onu da bildirib ki, Təhsil tələbə kreditlərinin faizləri də yüksək həddə müəyyən olunub. Onun sözlərinə görə, standart kredit üçün 6 faiz tələb edilməsi kreditin əlçatanlılığına ciddi manea olur. Bu da sonda verilən məbləğin iki dəfədən çox qaytarılması ilə nəticələnəcək. Bu amil də kredit götürülməsi üçün müraciətləri azaldacaq.

Odur ki, ekspert Təhsil tələbə kreditləri ilə bağlı qaydaların təkminləşdirilməli olduğunu bildirir.

Təhsil nazirinin müavini İdris İsayev isə bildirib ki, Təhsil tələbə kreditləri üçün müəyyən edilən faizlər yüksək deyil. Tələbə krediti qaytaran zaman ikiqat ödəniş etməyəcək: "Tələbə bakalavr səviyyəsində ödənişli təhsil alır. O, 4 il ərzində hər semestrdə kredit götürür. Bakalavr səviyyəsində orta təhsil haqqı 2250 manatdır. O, standart kredit götürdükdə 20 faiz ödəniş etməklə 6688 manat kredit götürmüş olur. 10 illik müddətdə geri qaytarılacaq məbləğ 9176 manat edir ki, bunun da 2288 manat kredit faizi edir".

İ.İsayevin sözlərinə görə, magistraturada orta təhsil haqqı 2430 manat civarındadır.

"Kreditin ümumi məbləği 3887 manat edir və 10 il ərzində 5187 vəsait qaytarmalıdır ki, onun da 1291 manatı faiz edəcək. Hər ay 43,1 manat vəsait edəcək. Subbakalavrların orta təhsil haqqı isə 750-900 manat edir. O, 20 faiz ilkin ödəniş etməklə 1820 manat kredit götürəcək. Kreditin qaytarılması müddətində 2424,70 manat ödəməlidir ki, bunun da 606 manatı faiz edəcək. Sosial tələbə kreditlərində bu məbləğ olduqca azdır. Əgər tələbənin orta müvəffəqiyyət göstəricisi 91 baldan yuxarı olarsa, ona əsas kreditin və faizinin 50 faizi bağışlanacaq".

Qeyd edək ki, Təhsil tələbə kreditinin ayrılmasında məqsəd təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığın təmin edilməsi, təhsildə bərabər imkanların yaradılması və təhsilin əhatə dairəsinin genişləndirilməsidir. Bu kredit dövlət dəstəyi ilə çox kiçik faizlərlə və uzun müddətə (təhsil səviyyəsindən asılı olaraq 15-22 il) verilir. Nazirlər Kabineti tərəfindən təsdiqlənmiş müvafiq qaydaya əsasən, təhsil tələbə kreditinin sosial və standart növləri mövcuddur. Sosial təhsil tələbə kreditindən yalnız sosial həssas təbəqəyə aid ailələrin üzvü olan tələbələr istifadə edə biləcək və onlara kreditlər güzəştli şərtlərlə veriləcək.

Məlumat üçün onu da bildirək ki, Təhsil tələbə krediti həm özəl, həm də dövlət ali təhsil müəssisələrinə aiddir. Kredit tələbənin özünə yox, təhsil aldığı ali təhsil müəssisəsinə köçürülür. Təhsilin normativ müddətində, güzəşt və möhlət dövründə kreditə faiz hesablanmır və kreditin qaytarılması tələb olunmur. Kreditə görə faizlərin hesablanmasında və kreditin qaytarılmasında təhsilin nəticələrindən asılı olaraq güzəştlər tətbiq olunur. Tələbə krediti məzun olduqdan və güzəşt dövrü bitdikdən sonra qaytarılır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Azərbaycanda onlayn mediaya dair standartlar hazırlanacaq

***"Strateji planlaşdırma istiqamətində də iş gedir. Onlayn media sahəsində reklam işinin optimallaşdırılması və potensialının gücləndirilməsi istiqamətində xüsusi layihə konsepti - MediaAd hazırlanacaq".***

Bunu Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.

O bildirib ki, onlayn mediada standartlar da hazırlanacaq. Ə. İsmayılov qeyd edib ki, bəzi media subyektləri feyk xəbərlərlə reytinq toplamağa çalışır ki, bu da peşəkar media subyektlərin fəaliyyətinə mənfi təsir edir: "Peşəkar media subyektləri birgə səylər göstərərək bu cür mənfi halların qarşısını ala bilir. Biz cəmiyyətimizi çaşdırıcı informasiyalardan qorumalıyıq. Peşəkar media subyektləri olaraq cəmiyyətin məlumatlılığını artırmalıyıq".

## Media və biznes subyektləri arasında müzakirələr keçiriləcək

***"Azərbaycanda olan ən məşhur biznes subyektləri ilə razılıq əldə olunub". Bunu Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.***



O bildirib ki, yaxın vaxtlarda biznes subyektləri ilə media subyektləri arasında müzakirələr keçiriləcək: "Bu görüşdə reklam məsələləri, media subyektlərini və biznes subyektlərini narahat edən məsələlər müzakirə ediləcək. Media subyektləri üçün biznes təlimlərinin keçirilməsi də planlaşdırılır".

Ə. İsmayılov qeyd edib ki, milli mətbuat günü ərəfəsində "Bakı Media həftəsi"nin keçirilməsi nəzərdə tutulur: "Eyni zamanda "İctimai proseslər mediada" adlı Davos formatında tədbir təşkil etməyi düşünürük. Bu adı gələcəkdə inkişaf etdirib başqa adla da bu tədbiri keçirə bilərik. Çünki ictimai proseslər, məişət zorakılıqları ilə bağlı qurumlar tərəfindən mediaya tənqidlər səsləndirilir. Bu tədbirdə bütün media subyektləri və həmin qurumların nümayəndələri də iştirak edəcək. Biz region mediasına dəstək layihəsi də həyata keçirəcəyik".

## Fərdi jurnalist müsabiqəsinin nəticələri açıqlanacaq

***"Fərdi jurnalist müsabiqəsinin nəticələri yaxın vaxtlarda açıqlanacaq".***

Bunu Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.

O bildirib ki, artıq nəticələr hazırdır: "Bizim obyektivliyimizə heç kimin şübhəsi olmasın".



## Prokuror Rasim Quliyevə 6 il həbs cəzası istədi

***Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş Aparat rəhbəri Rasim Quliyevin cinayət işi üzrə məhkəmə məhkəmə prosesi davam etdirilib.***

"Unikal" xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə ötən həftə məhkəmə istintaqının başa çatdığı üçün çıxışlar mərhələsinə başlanılıb.

Prosesdə dövlət ittihamçısı çıxış edib.

Prokuror çıxışında təqsirləndirilən şəxsə verilən maddələrlə təqsirli bilinərək 6 il azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd olunub ki, R.Quliyev 3 il dövlət orqanlarında vəzifə tuta bilməz.

## Koronavirusa görə bağlanan məktəbdə dərslər bərpa olundu

***Paytaxtdakı Məktəb-Lisey Kompleksində əyani dərslər bərpa edilib.***

Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi məlumat yayıb. Belə ki, təhsil ocağının kontingenti üçün Gigiyena və Epidemiologiya Mərkəzinin rəyi əsasında müəyyənləşdirilmiş karantin müddəti başa çatıb.

Təhsil müəssisələrində koronavirus infeksiyasına qarşı şagirdlərin və məktəbin pedaqoqi heyətinin daha etibarlı qorunması üçün sanitar-epidemioloji vəziyyətdən irəli gələn tələblərə ciddi əməl olunur.

## 2021-ci ildə həbs olunan jurnalistlərin sayı açıqlandı

***Jurnalistlərin Müdafiə Komitəsinin açıqladığı yeni hesabata əsasən, dəmir barmaqlıqlar arxasında olan jurnalistlərin sayı 2021-ci ildə pik həddə çatıb.***

"Unikal" xəbər verir ki, həbsxanada olan jurnalistlərin sayı 2020-ci ildə 280 olduğu halda, 2021-ci ildə bu rəqəm 293-ə yüksələrək rekord qırıb. Hesabatda bu il ən azı 24 jurnalistin reportajlarına görə öldürüldüyü barədə məlumatlar da yer alıb. Bundan əlavə, öldürülən 18 jurnalistin verdikləri xəbərə görə öldürülüb-öldürülmədiyi müəyyən edilməyib.

### Çin ilk sırada

Üç ildir ki, Çin dünyanın ən böyük jurnalist məhbusu olaraq qalır. Bu il həbsdə olan 50 jurnalistlə Çin birinci yerdədir. Myanma fevralın 1-də hərbi çevrilişin törətdiyi media əməliyyatlarına görə ikinci yerə yüksəlib. Digər üçlükdə isə Misir, Vyetnam və Belarus tutur.

ABŞ-da yerləşən CPJ qeyri-hökumət təşkilatı bəyan edib ki, jurnalistlərin həbsinin səbəbləri ölkədən asılı olaraq dəyişir, lakin bu il əldə edilən yüksək rəqəm dünyada baş verən siyasi təlatümləri və müstəqil reportajlara dözümlülüyün azaldığını əks etdirir.

***Gülayə Mecid***

# Aşıq Ələsgərin nəvəsi:"Metrostansiyalardan birinə babamın adı verilsin!"

***Bu il Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 ili tamam olur. Prezident İlham Əliyevin bununla bağlı noyabrın 30-da imzaladığı sərəncama uyğun olaraq, Bakı şəhərində ustad sənətkar Aşıq Ələsgərin abidəsinin ucaldılması qərara alınıb.***



Bu barədə Modern.az-a danışan Dədə Ələsgərin nəticəsi Xətai Ələsgərli 200 illik yubiley tədbirləri ilə bağlı təkliflərini səsləndirib. Aşığın nəslinin davamçısı onun mədəni irsinin təbliği ilə bağlı 2021-ci ildə önəmli, səs-küylü tədbirlərin həyata keçirilmədiyini düşünür:

"Aşıq Ələsgər haqqında vaxtilə ulu öndər Heydər Əliyev doğru qiymət verib. Sovet dövründə Aşıq Ələsgərin 150 illiyi Göyçə mahalında, İrəvanda, Moskvada və Bakıda qeyd edilib. İndiki məqamda müstəqil Azərbaycan kimi bizim daha çox imkanlarımız var ki, daha yaxşı işlər görək, dədə Ələsgərin adını əbədiləşdirək, irsini təbliğ edək. İndiyə qədər Aşıq Ələsgərin böyüklüyü adını qoruyub saxlaya bilib. Təəssüf edirəm ki, bəzən aidiyyəti olan qurumlar məsələyə ürəkdən yanaşmayıblar. Bir müddət sanki Aşıq Ələsgər kölgədə qaldı. Dədə Ələsgərin irsinin qorunması ilə bağlı görüləcək çox işlərimiz var. Bunlar həyata keçərsə, saz sənətinə verdiyimiz dəyəri bir daha nümayiş etdirmiş olarıq. Öz kökümüzə sayğımızı, hörmətimizi bütün dünyaya nümayiş etdirə bilərik. Aşıq Ələsgərin irsinin əbədiləşdirilməsi aşıq sənətini yaşadan, dəyər verən hər kəsin ürəyincə olar".

Xətai Ələsgərli həm Aşıq Ələsgərin nəticəsi kimi, həm də "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri kimi təkliflərini bizimlə bölüşüb: "Məsələn, Bakı Metropoliteninin stansiyalarından birinə Aşıq Ələsgərin adını vermək təqdirlə qarşılana bilər. Metronun "Gənclik", "Ulduz", "Dərnəgül" kimi stansiyalarının adları Aşıq Ələsgər adından önəmli və böyük deyil. Aşıq Ələsgər poeziyasının təbliğinə bu şəkildə ciddi yanaşmaq, mədəni irsimizi qoruyacaq gənc nəsil üçün də əhəmiyyətli ola bilər.

Aşıq Ələsgər hansı xalqın mədəni tarixində olsaydı, bütün dünyaya yaymışdılar. Bu gün Aşıq Ələsgərin adını daşıyan bir Mədəniyyət evi belə yoxdur. Utanverici məqamdır. Əvvəllər belə bir mədəniyyət ocağı var idi. Sonradan onu Mədəniyyət Nazirliyinin balansından çıxarıb, Həmkarlar İttifaqına verdilər. Bununla Aşıq Ələsgərin adını daşıyan Mədəniyyət evi özəlləşdirilib, bir tərəfi xeyir-şər evi, bir tərəfi isə restoran şəklində istifadə olunur. Çox acınacaqlı bir vəziyyətdir və mən düşünürəm ki, elə ilk olaraq bu mədəniyyət ocağının bərpası ilə başlamaq lazımdır. Mən hazırda Aşıq Ələsgərin adına böyük bir Ozan evinin istifadəyə verilməsi üçün çalışıram. Aşıq sənətini yaşadan, bununla maraqlanan hər kəsi həmin Ozan evində birləşdirmək olar. Mən bununla bağlı təkliflərimi hazırlayıb, aidiyyəti qurumlara təqdim edəcəyəm. İnanıram ki, köməklik göstərilib, aşıq sənətinin yaşadılması üçün addım atılacaq".

Prezident İlham Əliyevin Aşıq Ələsgər irsinə yüksək dəyər verdiyini vurğulayan Xətai Ələsgərli aidiyyəti qurumların da üzərinə düşən məsələləri həll etməsini gözlədiyini bildirib: "Prezidentimiz Aşıq Ələsgərin heykəlinin qoyulması ilə bağlı sərəncam imzaladı. Bu çox sevindirici addım oldu. Qeyd etdiyim təkliflərin reallaşması, Prezidentimizin müvafiq sərəncamına uyğun Dədə Ələsgərin xatirəsinin layiqli şəkildə əbədiləşdirilməsi, onun mədəni irsinin təbliği və yaşadılması bütün aşıq sevərlərin təqdirinə səbəb olacaq".

# Dövlət Komitəsində britaniyalı analitiklərlə görüş olub

***Dekabrın 8-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Böyük Britaniyanın Münaqişənin və Sabitliyin Birgə Təhlili Qrupunun mütəxəssisləri Ryan Qrist və Helen Kriger-Elis Makkenzi ilə görüşüb.***

Dövlət Komitəsindən "Unikal"a verilən məlumata görə, Azərbaycanda qaçqınlıq və məcburi köçkünlük probleminin yaranmasının səbəbləri, bu problemin həlli istiqamətində aparılan dövlət siyasəti, həmçinin komitənin fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verilib.

Prezident İlham Əliyevin məcburi köçkünlərin sosial müdafiəsinin təşkilinə, yaşayış şəraitinin yaxşılaşdırılmasına, məşğulluğunun artırılmasına xüsusi diqqət yetirdiyi, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın bu sahədəki təşəbbüslərinin böyük əhəmiyyət daşıdığı bildirilib. Qeyd edilib ki, Ermənistanın otuz ilə yaxın müddətdə işğalda saxladığı, ötən il 44 günlük müharibə nəticəsində azad edilmiş ərazilərdə Azərbaycan dövləti geniş bərpa-quruculuq işlərinə başlayıb, məcburi köçkünlərin təhlükəsiz şəraitdə, könüllülük prinsipi əsasında və ləyaqətlə öz tarixi torpaqlarına qayıdışına hazırlıq görülür.



İşğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunması və minatəmizləmə işlərinə Böyük Britaniyanın verdiyi dəstək minnətdarlıq hissi ilə qeyd olunub, bunun ölkələrimiz arasında qarşılıqlı etimada əsaslanan əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etdiyi bildirilib.

Britaniyalı analitik Ryan Qrist Azərbaycana səfərdən məmnunluq duyduqlarını vurğulayıb, münaqişənin başa çatmasını, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılmasını yüksək dəyərləndirib. Postmünaqişə dövründə qarşıya qoyulan məqsədlər, keçmiş münaqişə zonasında dinc birgəyaşayışla bağlı qonaqların sualları cavablandırılıb. Həmçinin bu sahədə əməkdaşlıq imkanlarına toxunulub, fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.



# "Rusiya sülhməramlıları bu işə son qoyacaq" - Rüstəm Muradov

***"Bu günə qədər Azərbaycan tərəfinin bütün əsir hərbçiləri geri qaytarılıb və erməni hərbi əsirlərin qaytarılması istiqamətində işlər davam edir. Müsbət anlaşma var. Hesab edirəm ki, bu məsələ tamamilə bağlanmalıdır. Və Rusiya sülhməramlıları bu işə son qoyacaqlar".***

"Unikal" xəbər verir ki, bu sözləri Rusiya sülhməramlılarının əvvəlki komandan Rüstəm Muradov bildirib.

O qeyd edib ki, məhbusların geri qaytarılması ilə bağlı iş sülhməramlıların üzərinə düşür.

***Ağarza Elçinoğlu***

# Fermerlər payızlıq əkinlərə görə subsidiya almaq üçün nə etməlidir?



***Payızlıq əkinlərə görə subsidiya almaq üstəyən fermerlərin öz torpaq və əkin məlumatlarını Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan etməsi prosesi davam edir.***

"Unikal" xəbər verir ki, bəyan prosesinin sürətləndirilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bölgələrdə məlumatlandırma sessiyaları keçirilir, səyyar xidmətlər təşkil olunur, fermerlər arasında maarifləndirmə işləri aparılır.

İndiyədək nazirlik tərəfindən 30-dan artıq rayonda məlumatlandırma sessiyaları keçirilib. Növbəti sessiya Şəmkir, Samux və Göygöl rayonlarında baş tutub. Tədbirlərdə çıxış edən Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Rəfael Quliyev bildirib ki, ötən dövr ərzində aqrar sahəyə subsidiyaların verilməsində çoxsaylı dəyişikliklər tətbiq olunub. Bu dəyişikliklər ölkənin ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsinə, məhsuldarlığın artmasına, fermerlərin rifah halının yaxılaşdırılmasına yönəlib. Subsidiyaların Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi üzərindən verilməsi bu sahədə şəffaflığı tam təmin edir, aqrar fəaliyyətə dair məlumatlar bazasının formalaşmasına köməklik göstərir.

Görüşlər zamanı bildirilib ki, fermerlər payızlıq əkinləri bəyan edərkən bəyan edərkən Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) elektron kabinetin aktivləşdirilməsinə, əkilən və ya yerdə mövcud bitkinin doğru seçilməsinə, bəyan hektarının konturlarının doğru qeyd olunmasına, əkin yerinin elektron xəritədə düzgün qeyd edilməsinə və əkini yalnız öz istifadəsində olan ərazilərdə bəyan etməsinə diqqət etməlidir.

Qeyd olunub ki, vaxtında edilməyən və ya yanlış edilən bəyan nəticəsində fermerlərə əkin subsidiyası ödənilməyəcək. Bəyanların vaxtında edilməsi monitorinqlərin sürətli və operativ təşkilinə, əkin subsidiyasının 2022-ci ilin ilk aylarında ödənilməsinə imkan yaradacaq. Monitorinq zamanı aşkarlanmış yalnış bəyan fermer üçün subsidiyanın az ödənilməsi, yaxud 1 və ya 2 il ödənilməməsi halı ilə nəticələnə bilər. Ödəniş aparıldıqdan sonra (monitorinqə düşməzsə) yalnış bəyan müəyyən edilərsə İnzibati Xətalar Məcəlləsinin 411-2-ci maddəsinə əsasən cərimə tətbiq olunacaq.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 1 sentyabr 2021-ci il tarixli Fərmanı ilə "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilib. Fərmana əsasən, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rola malik olan bitkilər üzrə 10 hektardan artıq əkin sahələrinə əkin subsidiyaları 3 il ərzində aqrar sığorta olunmaqla veriləcək.

Aqrar Subsidiya Şurası tərəfindən müəyyən edilən siyahıya əsasən aqrar sığorta tələbi 7 bitkiyə - buğda, arpa, çəltik, çay, limon, fındıq və qarğıdalıya şamil edilib. Yenilik ölkənin ərzaq təhükəsizliyinin təmin edilməsi, təsərrüfatların təbiət hadisələri və digər risklərdən sığortalanması, fermerlərin məhsullarının və gəlirlərinin qorunması məqsədi daşıyır.

Dövlət tərəfindən fermerlərə verilən çoxsaylı dəstək mexanizmləri aqrar sığortada da nəzərdə tutulub. Aqrar sığorta haqqının 50%-i dövlət tərəfindən ödənilir. 1 hektar taxıl sahəsinin sığorta haqqının fermerlər tərəfindən ödənilən hissəsi regionlar üzrə əsasən 6-12 manat arasında dəyişir. Fermerlərə dekabrın 30-dək əkin sahələrini güzəştli şərtlərlə sığortalamaq tövsiyə olunub.

Görüşlərdə iştirakçıların sualları ətraflı cavablandırılıb, səslendirilən təkliflər qeydiyyata alınıb.

Bölgələrdə məlumatlandırma sessiyaları davam edir. Növbəti sessiya Neftçala və Salyan rayonlarında keçiriləcək.

# Sevgisi Vətən olan ömür yolu

***Ürəyi Vətən boyda olan, ömrünün son dəqiqəsinə qədər Vətən sevgisi ilə yaşayan, 22 yaşında qəhrəmanlığı böyük bir xalqın dilində dastan dönən Cavad Babayevdən danışmaq istəyirəm. Masallı rayonu, Qızılağac kəndində yurd-yuva quran Gülverdi kişinin ailəsində dünyaya gələn Cavadın İkinci Qarabağ müharibəsində göstərdiyi şücaət onu bütün Azərbaycana oğul etdi.***

Cavad hələ kiçik yaşlardan canına yağı dadanmış yurdunun ağrıları ilə yaşayır. Odur ki, 2017-ci ildə həqiqi hərbi xidmətə yola düşəndə amalı yalnız Vətən torpaqlarını işğal etmiş erməni faşistlərdə qisas almaq olur. Əsgərliyi Gədəbəy rayonunda keçən Cavad dəfələrlə erməni dığaları ilə üz-üzə gəlir. Yağıya yerini göstərməklə əsgərlərin, zabitlərin hörmətini qazanır. Bundan başqa da bütün təlimlərdə fəal olur, işğal altında qalan torpaqlarının azadlığını düşünməklə doğma Azərbaycanın keşiyində ayıq-sayıq dayanır. Həmişə də əsgər yoldaşlarına deyir ki, Vətən ana qədər əziz, candan şirindir. Hamımız yumruq kimi birləşib onu düşmən ayağından azad etməliyik.



Əsgərlikdən sonra Cavad tikinti şirkətlərində çalışır. Köksündə çağlayan həyat eşqi, qurub-yaratmaq amalı ilə həmişə başqalardan fərqlənir. Qarı düşmənə nifrəti də azalmır. Axı, ondan alacağı öcü var idi. Ötən ilin sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda bir çox igid oğlanlar kimi Cavad Babayev də könüllü ön cəbhəyə yollanır. Vətən torpağı uğrunda özünü fəda etməyi müqəddəs iş bilən igid döyüşçü ağır müharibə meydanlarında böyük şücaət göstərir, əzmlə vuruşur. Onun qələbə sorağı ölüm-dirim savaşları gedən ən qaynar nöqtələrdən gəlir. Hər dəfə erməni faşistlərinə matam libası geyindirəndə canından artıq sevdiyi Vətən Cavada bir daha müqəddəs görünür. Cəbrayıl, Qubadlı döyüşlərində sözün əsl mənasında tarix yazır. Dığalara sarsıdıcı zərbələr vurur, hər qarış torpaq uğrunda can qoyur. Qubadlıda düşmən gülləsi ürəyinə dəyəndə son nəfəsdə "Təki Vətən yaşasın!"- deyib əbədi gözlərini yumur.

Bəli, Cavad öz xalqı üçün ölməyib. O, canını bağlı olduğu Vətən qurban verməklə əbədi ömür qazanıb.

Nə yaxşı ki, Cavad kimi qəhrəman, vətənpərvər oğulların sayəsində şanlı Azərbaycan Ordusu zəfər çalıb Vətən torpaqları düşmən tapdağından azad olundu, minlərlə şəhidimizin qanı yerdə qalmadı. Dövlət də öz qəhrəman oğullarını unutmur. Sevgisi Vətən olan ömür yolu keçən, qalib şəhid Cavad Babayev də "Cəsur döyüşçü", "Vətən uğrunda" Cəbrayılın, eləcə Qubadlının azad olunmasına görə medallara layiq görülüb.

***Zəfər Orucoğlu, AJB üzvü***



# Kamal Abdulla serbiyalı səfirlə görüşdü

***Bu gün Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla Serbiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavlyeviçlə görüşüb.***

Universitetdən "Unikal"a verilən məlumata görə, səfiri rəhbərlik etdiyi təhsil ocağında görməkdən məmnun olduğunu deyən rektor, iki ölkə arasında təhsil sahəsində əlaqələrin bundan sonra da inkişaf edəcəyinə inandığını diqqətə çatdırıb. ADU-da fəaliyyət göstərən Serb dili və Mədəniyyəti Mərkəzi haqqında danışan Kamal Abdulla, Serbiya prezidenti Aleksandr Vuçiçin səfərini xatırladıb, elmi əməkdaşlığın bundan sonra da davam etdiriləcəyini, müəllim-tələbə heyətinin qarşılıqlı elmi mübadiləsinin faydalı olacağını qeyd edib:

"Bu gün yeni layihələrin, əməkdaşlıq imkanlarının və perspektiv vəd edən proqramların həyata keçirilməsi baxımından əlverişli şərait mövcuddur. Bu fakt böyük əhəmiyyət kəsb edir. Serb həmkarlarımızla münasibətlərimiz bizi məmnun edir. Biz görüşlərimizi daim xoş xatırlayır və yüksək dəyərləndiririk. Dəvətimizi qəbul etdiyiniz üçün sizə təşəkkür edir, faydalı əməkdaşlığın qurulmasındakı təşəbbüsünüzü alqışlayırıq".

Görüşdə həmçinin Azərbaycanın multikultural dəyərlərə sahib ölkə olması barədə müzakirə aparılıb, multikulturalizmin dövlət siyasəti olduğu vurğulanıb. Eyni zamanda hər iki ölkənin universitetlərində hazırlanan mütəxəssislərin beynəlxalq konfranslarda, elmi görüşlərdə, tədbirlərdə yüksək səviyyədə iştirak etdiyi xüsusi olaraq qeyd olunub.

Səfir xoş sözlərə görə rektora öz təşəkkürünü bildirib. Təhsil və mədəniyyət istiqamətində göstərilən dəstəyi yüksək dəyərləndirən qonaq, bundan sonra da əlaqələrin yüksələn xətlə inkişaf edəcəyinə ümidvar olduğunu vurğulayıb:

"Birlikdə gördüyümüz və görəcəyimiz işlərin əhəmiyyəti həm elmi, həm də dostluq münasibətlərimiz üçün önəmli rol oynayır. Serb dili və Mədəniyyəti Mərkəzinin fəaliyyəti bu işlərin əsas göstəricilərindən biridir. Bizim maraqlarımız həm burada təhsil alan tələbələrin, həm də Serbiyada təhsil alan tələbələrin maraqları dairəsindədir. İkitərəfli münasibətlərimizdən danışanda mütləq qeyd etməliyik ki, bu, qardaşlıq münasibətidir".

Səfir işğaldan azad olunmuş torpaqlara səfərindən söhbət açıb. Ağdam və Şuşa səfərinin unudulmaz bir xatirəyə çevrildiyini, Qarabağın füsunkar təbiətə malik olduğunu söyləyib. Serbiyanın Azərbaycan həqiqətlərini dəstəklədiyi və bundan sonra da dəstəkləyəcəyi vurğulanıb.

Daha sonra Draqan Vladisavlyeviç ADU-nun Serb dili və Mədəniyyəti Mərkəzinə baş çəkib, tələbələrlə görüşüb.

# Xəzərdə itkin düşən neftçinin meyiti tapıldı

***Xəzər dənizində, "Qərbi Azəri" platformasının yaxınlığında tapılan kişi meyitinin qalıqları 2015-ci ildə itkin düşmüş Bəhmən Cəfərova aiddir.***

Bu barədə "Unikal"a Baş Prokurorluğun Mətbuat Xidmətindən bildirilib.



## Ərdoğan xalqı səbrli olmağa çağırdı

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasdan sonra açıqlama verən Ərdoğan Türkiyənin yeni yol xəritəsinə başladığını elan edib.

"Nə etdiyimizi bilirik. Millətimizdən bizə etimad göstərməsini və səbrli olmasını istəyirik", - Ərdoğan deyib.

Onun sözlərinə görə, Türkiyə Qətərlə indiyədək 84 müqavilə bağlayıb və bu, iki ölkə arasındakı əməkdaşlığın səviyyəsini daha da yüksəldib. Türkiyə ilə Birləşmiş Ərəb Əmirlikəri arasında başlanan əməkdaşlığın yeni mərhələsi hər iki ölkənin iqtisadiyyatına müsbət təsir göstərəcək: "Hədəfimiz sərmayə yatırımı ilə məşğulluq, istehsalat, ixracat və böyüməni daha da irəliyə aparmaqdır".

## Saakaşvili səhhətinə görə məhkəmədə iştirak etməyəcək

***Gürcüstanın keçmiş prezidenti Mixeil Saakaşvili səhhətinə görə dekabrın 9-da məhkəmə iclasında iştirak edə bilməyəcəyini deyib.***

"Unikal" xəbər verir ki, bu barədə o, "Facebook"da yazıb. Cümə axşamı Tbilisi şəhər məhkəməsində sabiq prezidentin sərhədi qanunsuz keçməsi ilə bağlı işə baxılacaq.

"Səhhətimlə əlaqədar sabahkı prosesdə iştirak etməyəcəm. Məni məhkəməyə getməyə vadar edən yeganə şey o insanların bir neçə aydır təzyiqlərə məruz qalması idi. Bu insanlar dərhal azadlığa buraxılmalıdırlar", - Saakaşvili yazıb.

Xatırladaq ki, qeyd edilən iş üzrə ilk iclas noyabrın 16-da, Saakaşvilinin iştirakı olmadan keçirilib.

## Erməni hərbçi əsgər yoldaşını güllələyib

***Ermənistanda hərbçi öz əsgər yoldaşını güllələyib. Bu barədə Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.***

Yerli media hazırda araşdırma aparıldığını yazıb.

- 2003-cü il təvəllüdlü çağırışçı Senik Arturoviç Saakyan müdafiə nazirliyinin ölkənin cənub-şərq istiqamətində yerləşən N saylı hərbi hissəsində ağır güllə yarası alıb. Hadisə dekabrın 8-də saat 23:50 radələrində baş verib. İlkin məlumatlara görə, Saakyanı həmkarı güllələyib. Əsgərin vəziyyəti son dərəcə ağır qiymətləndirilir. Hadisənin baş verməsi şəraitinin tam aydınlaşdırılması üçün araşdırma aparılır,-məqalədə yazılıb.

# Geosiyasi detektiv: "Taliban" İranın gizli himayəsindən necə çıxarıldı - Təhlil



***Dekabr ayı "Taliban" hərəkatı ilə İran sərhədçiləri arasında silahlı insident xəbərilə başlamışdı. Qarşıdurma nəticəsində İranın iki nəzarət-buraxılış məntəqəsinin taliblərin əlinə keçdiyi bildirilirdi. Qarşıdurmada atıcı silahlarla yanaşı, artilleriyadan da istifadə olunub. Sonradan İran tərəfi məlumatını təkzib etdi və insidentin səbəbinin iranlı fermerlərin səhvən sərhəd xəttini keçmələrilə bağlı olduğunu bildirdi.***

Xatırladaq ki, anoloji hadisə bu ilin avqust ayında da baş vermişdi. O vaxt yayılan rəsmi məlumatda əfqanıstanlı döyüşçünün "səhvən" İran sərhədini keçdiyi, yaxalanaraq geri qaytarıldığı bildirildi.

Amerikanın hərbi qüvvələrinin Əfqanıstanı tərk etməsi və "Taliban" qruplaşmasının bu ölkədə hakimiyyəti ələ keçirməsindən sonra regionda baş verən hadisələrə maraq daha da artıb. Bunun əsas səbəbi Əfqanıstanın Amerikadan sonrakı taleyinə olan maraqla bağlıdır. İlk baxışdan xırda görünən insidentlər əslində Əfqanıstanın yeni köhnə sahiblərinin öz ərazilərinin sərhədlərini müəyyən etməsi prosesidir. Uzun illər əldən-ələ keçən, müxtəlif dövlərin təsiri altında olan Əfqanıstanın yeni sahibləri bu dəfə torpaqları bölüşmək fikrində deyillər. Xüsusən də, əvvəlki illərdən fərqli olaraq regionun ən fəal oyunçusu hesab edilən İranın ilk baxışdan "sahibsiz" görünən Əfqanıstandan pay almaq cəhdlərinin qarşısı alınır. Baş verən insidentlər taliblərin İrana hücumundan daha çox, İranın Əfqanıstana müdaxilə cəhdlərinin qarşısını almasına bənzəyir.

İranın Əfqanıstanla bağlı iddialarının olması heç də təsadüfi deyil. İki ölkə arasında 921 km.-lik sərhəd xətti var, əfqanların əksəriyyəti fars-dari dilində danışır və əhalisinin 20 faizi şiədir. "Taliban" hərəkatını birmənalı şəkildə Pakistanın xüsusi xidmət orqanlarının yetirməsi hesab etmək olmaz. "Taliban"ın yetişib ərsəyə gəlməsində İranın, xüsusilə, İslam İnqilabı Keşikçiləri Korpusunun "Əl Qüds" təşkilatının əməyi danılmazdır. Dünya ictimaiyyəti "Əl Qüds" təşkilatını daha çox onun rəhbəri olan Qasım Süleymaninin 2020-ci ildə ABŞ HHQ-nin raketi ilə vurulmasından sonra tanıdı.

Vaxtilə "Taliban" Amerika xüsusi xidmət orqanları tərəfindən pakistanlı həmkarlarıyla birlikdə Əfqanıstanda sovet qoşunlarına qarşı mübarizə aparmaq üçün yaradılmışdı. Məhz bu dövrdə "Taliban"dan paralel olaraq SSRİnin regiondakı əsas müttəfiqlərindən biri olan İranın bu ölkəyə müdaxiləsinin qarşısını almaq məqsədilə istifadə edilirdi. Sovet qoşunları Əfqanıstandan çıxdıqdan bir müddət sonra taliblər nəhayət ki, arzularına çatdılar və 1996-cı ildə Əfqanıstanda hakimiyyəti ələ keçirə bildilər. Yaxud, kommunistlərə qarşı mübarizədə "fəallıq göstərdiklərinə" görə hakimiyyətlə mükafatlandırıldılar. Talibanın Əfqanıstanda 1-ci hakimiyyəti dövründə, yəni 1996-2001-ci illərdə də İranın Əfqanıstandakı əsas dayaq nöqtələri olan şiə əhalinin yaşadığı ərazilərə hücumlar təşkil olunurdu. Hətta 1998-ci ildə Məzari-Şərif şəhərinə hücum zamanı İranın bu şəhərdə yerləşən konsulluğunun 9 əməkdaşı da güllələnmişdi.

Məhz bu dövrdən etibarən İran Əfqanıstanda "Taliban"a qarşı mübarizə aparan dövlətlər arasında ön sırada getməyə başladı. 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra ABŞ-ın "Taliban"ı "Əl-Qaidə" ilə əməkdaşlıqda ittiham etməsi və Əfqanıstana hərbi müdaxiləsindən sonra Tehran "Taliban"ın hakimiyyətdən devrilməsi üçün Vaşinqtona açıq şəkildə dəstək göstərirdi.

Buna baxmayaraq, 2002-ci ildə ABŞ prezidenti Corc Buş İranı "şər məhvəri"nin üzvü adlandırdı və həmin vaxtdan etibarən yenidən ABŞ-İran münasibətlərində soyuqluq yaranmağa başladı. Amerika prezidentinin nəyə əsasən Əfqanıstanda özünə dəstək göstərən İranı "şər məhvəri"nə aid etdiyi müəmmalı qalsa da, bəzi mənbələr iddia edir ki, İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) hələ 2001-ci ildən çox-çox əvvəl "Taliban"la əməkdaşlığa başlamışdı və Vaşinqtonun qəzəbi yersiz deyildi.

Hər halda, ABŞ-ın "Taliban"ı, həmçinin İranı açıq şəkildə özünə düşmən elan etməsi Tehranın "düşmənimin düşməni dostumdur" prinsipinə uyğun olaraq, "Taliban"la açıq şəkildə əməkdaşlığa başlamasına əsas verdi.

"The Wall Street Journal"ın məlumatına görə, İİKK-in rəhbəri olmuş Mahmud Əhmədinejatın 2005-ci ildə prezident seçilməsindən sonra "Taliban" la yaxınaşma istiqamətində işlər daha da aktivləşdi, İranın Məşhəd şəhərində qruplaşma üçün xüsusi qərargah yaradıldı. 2014-cü ildən isə komanda mərkəzi quruldu və "Taliban" yaraqlıları burada təlim keçməyə başladılar. Bir müddətdən sonra Pakistanın Kvetta şəhərilə yanaşı, Məşhəd də "Taliban"ın əsas mərkəzlərindən birinə çevrildi. "Taliban"ın Xaytabulla Axundzadə və Əxtar Mənsur kimi liderləri Tehranın dəstəyini qəbul edib, İranla sıx əməkdaşlığa başladılar. Pentaqonun 2014-cü il hesabatında qeyd olunurdu ki, İranın "Taliban"a dəstəyinin ümumi dəyəri illik 190 milyon dollara çatırdı.

Tehranın "Taliban"ı dəstəkləməsi ABŞ-ın başçılıq etdiyi koalisiya qüvvələrinin Əfqanıstandan çıxdığı günə hesablanmışdı. Məhz bundan sonra hakimiyyətin "Taliban" tərəfindən ələ keçiriləcəyi gözlənildiyi üçün, Tehran Əfqanıstanın idarəetmə açarını əlinə alacağını düşünürdü. Ancaq ABŞ ilə Böyük Britaniyanın oynadığı ikili kombinasiyalı oyun İranın deyil, Pakistanın qələbəsilə nəticələndi. Vaşinqton ilə London Əfqanıstanın idarəetməsini Pakistan və Türkiyəyə həvalə edərək, İranı oyundankənar vəziyyətə saldılar.

Xatırlatmaq yerinə düşər ki, İranın keçmiş xarici işlər naziri Cavad Zərifin bu ilin aprel ayında yayılmış səs yazısında o, İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) və "Əl-Qüds"ün rəhbəri Qasım Süleymanidən şikayətlənərək, onların İranla Qərb dövlətləri arasında nüvə sazişi imzalamasına əngəl olduqlarını demişdi. Güman etmək olar ki, "nüvə sazişi"ndə İrana Əfqanıstan iddialarından əl çəkməsi təklif edilib, lakin, bu məsələ Tehranda ciddi fikir ayrılığına səbəb olduğundan, razılaşma əldə edilməyib.

Deməli, Əfqanıstan yolunda əsas maneələrdən biri Qasım Süleymani idi. 2020-ci il yanvarın 3-də amerikalıların "Əl-Qüds" rəhbərini məhv etməsindən sonra əngəl aradan qalxdı; həmin il fevralın 29-da isə Qətərin paytaxtı Dohada "Taliban"la Amerika arasında barışıq razılaşması imzalandı. Amerikanın Əfqanıstandan çıxdıqdan sonra İranın bu ölkədə qalmış yeganə dayaq nöqtəsi Pəncşirdə anti-Taliban üsyanı da uğursuzluğa düçar oldu. Pakistanın hərbi-hava qüvvələri bir gecədə Pənçşiri bombardman edərək, üsyanın qarşısını aldılar.

Görünən odur ki, Əfqanıstanın "kurasiyası" tamamilə Pakistana həvalə olunub və baş verən son insidentlər İranın bu ölkədəki əvvəlki nüfuzunu bərpa etmək yolunda sonuncu həmlələridir. Tehranın "Taliban"la açıq müharibəyə girməsini gözləmək sadəlövhlük olar. Ancaq digər tərəfdən, artıq "terrorçuların əlində olan Əfqanıstan" Qərbin İrana ciddi təzyiq vasitəsidir. Əgər İrana qarşı müharibə planı varsa, əsas platsdarmın Əfqanıstan ərazisi, düşmənin isə "Taliban" terror təşkilatı olacağını ehtimal etmək olar(azvision).

***Tofiq Vahid***

# Vaqif Cavadov: “Bazel” “Qarabağ”ı qorxuda bilməz”

***“Qarabağ”ın və Azərbaycan millisinin sabiq futbolçusu Vaqif Cavadovun apasport.az saytına müsahibəsi.***

***- Sabiq komandanız “Qarabağ” Konfrans Liqasının qrup mərhələsinin son turunda “Bazel”in qonağı olacaq. Bugünkü matçdan nə gözləyirsiniz?***

- Məncə, “Qarabağ” öz vəzifəsini artıq yerinə yetirib, ən azı pley-offa vəsiqəni təmin edib. Uğur komandanın yanında olsa, “Qarabağ” bu görüşdə də qalib gələcək. Qrup birinciliyi daha çox maddi qazanc deməkdir. Bu, ola da bilər, olmaya da. Mövsümün əvvəlində deyilsəydi ki, “Qarabağ” qrupda ikinci olacaq, hamı razılaşardı. Amma indi qrup birinciliyi qarşıda duran hədəfdir. Bu özü böyük uğurdur. Bütün futbol ictimaiyyəti, azarkeşlər kimi, biz də “Qarabağ”ın qələbəsini arzulayırıq. Düşünürəm ki, pley-offa yollansaq belə, bu komanda barədə artıq-əskik nəsə deməyə dilimiz gəlməz. Yalnız yaxşı, zədəsiz oyun, qələbə və yeni reytinq xalları arzulayıram.

***- “Qarabağ” ikinci yeri tutarsa, pley-offda yarışacaqsa, birinci olacağı təqdirdə 1/8 finala yollanacaq. Bu amil axşamkı qarşılaşmanın prinsipiallığını artırır, yoxsa indiki durumla kifayətlənmək olar?***

- “Qarabağ” işini artıq görüb. 1/8 finala yollanmağı kim istəməz? Çünki birbaşa ora yollananda daha çox pul qazanırsan, iki oyundan azad olursan.



Pley-offa getsə belə, “Qarabağ”ı qınamaq olmaz.

***- Ancaq “Omoniya” ilə ötən tur matçındakı bərabərliklə liderlik əldən çıxdı. Komanda birinci yeri tuta bilməsə, buna görə hakimləri, yoxsa özünü günahlandırmalıdır?***

- Hakimlər də, komanda da səhvlər edə bilər. Amma ümumi götürdükdə “Qarabağ” “Omoniya”ya qarşı gözəl oyun keçirdi, kifayət qədər qol imkanı yaratdı. Sadəcə, bəxtsizlik oldu. Nəzərə alaq ki, hesabda geridə olarkən önə keçməyi bacardı. Son dəqiqədə mərkəzdən buraxılan qola gəlincə, futbolda belə şeylər olur. Hələ mövsüm başlayanda heç kim deyə bilməzdi ki, “Qarabağ” qrupda ilk iki yerdən birini tutacaq. Bu komanda bizləri artıq sevindirib. Yenə də böyük uğura imza atacaqlarına inanıram.

***- “Bazel” öz meydanında yəqin ki, Bakıdakı kimi müdafiə futbolu sərgiləməyəcək. Bu amil “Qarabağ”ın xeyrinə, yoxsa ziyanınadır?***

- “Bazel” adlı-sanlı komandadır, evdə tam başqa futbol oynayır. “Qarabağ” üçün çox çətin olacaq. Azarkeşlərinin böyük dəstəyi altında çıxış edirlər. Azarkeşlərin komandanı irəli atması ilk dəqiqələrdən hiss olunacaq. Amma “Bazel” “Qarabağ”ı bununla qorxuda bilməz. Çünki Azərbaycan klubu belə şeylərə öyrəşib. Həlledici məqam futbolçuların matça psixoloji cəhətdən necə hazır olmasıdır. Oyunçularımızın motivasiyası qaydasında olsa, qələbə qazanacağıq.

***- “Qarabağ”ın prezidenti Tahir Gözəl müsahibəsində Konfrans Liqasını qazanmağı arzuladıqlarını bildirib. Sizcə, bunun reallaşması nə dərəcədə mümkündür?***

- Hər şey “Qarabağ” futbolçularının öz əlindədir. “Bazel”ə qalib gəlib 1/8 finala adlasalar, finala yüksəlmək üçün 3 rəqibi üstələmək kifayət edəcək. Ona görə də hər şey mümkündür. 2004-cü ildə heç kim Yunanıstandan Avropa çempionluğunu gözləmirdi. Futbolun gözəlliyi də ondadır ki, hər an hər şey yaşana bilər. Əsas odur ki, Tahir bəyin hədəfi var. Bunu deyirsə, deməli, onu reallaşdırmaq niyyətindədirlər. Komandanın nəticələrinə, ortaya qoyulan işə görə bu hədəf qoyulur.

*Ruslan Sadıqov*

# Messi ilə başladı, Messi ilə bitdi: 17 ildən sonra Avropa Liqasında

***“Barselona”nın Çempionlar Liqasındakı 17 illik seriyası başa çatıb.***

Apasport.az saytının məlumatına görə, 2004/05 mövsümündən başlayaraq hər il qrupdan çıxmağı bacaran İspaniya nəhəngi bu dəfə 3-cü yerin sahibi kimi Avropa Liqasına yollanıb.

Barselonanın eyniadlı təmsilçisinin seriyası Lionel Messinin komandadakı ilk mövsümündə başlayıb. Uğurlu seriya argentinalının komandadan getdiyi ilk mövsümdə qırılıb.

Kataloniya təmsilçisinin Çempionlar Liqasının pley-offundan kənarda qalması sonuncu dəfə 2003/04 mövsümündə qeydə alınıb. Həmin il komanda ümumiyyətlə bu turnirin qrupuna da düşməyib. Barselonalılar həmin vaxt olduğu kimi 17 ildən sonra Avropa Liqasında (o vaxt UEFA kuboku adlanırdı) oynayacaq.

Bu göstəricidə rekord “Real”a məxsusdur. Madrid klubu ardıcıl 25 dəfə qrupdan pley-offa yüksəlib.

Barselonalıların qrupda oynayıb, mərhələ keçməməsi isə 21 ildə ilk dəfə yaşanıb. 2000/01 mövsümündə “Milan” və “Lids”dən sonra qrup üçüncüsü olan komanda UEFA kubokuna yuvarlanıb. Orada yarımfinala qədər irəliləyən ispaniyalılar sonda turnirin qalibi olan “Liverpul”a uduzub - 0:0, 0:1.



Qeyd edək ki, “Barselona” qrup mərhələsinin son turunda “Bavariya”ya 0:3 hesabı ilə məğlub olduqdan sonra 3-cü yeri tutub.

# “Barselona” son 17 ildə ilk dəfə qrupdan çıxa bilmədi

***“Barselona” son 17 ildə ilk dəfə Çempionlar Liqasında qrup mərhələsini adlaya bilməyib.***

Komandanın ötən gecə Çempionlar Liqasının qrup mərhələsinin 6-cı turunda “Bavariya”ya uduzmasından (0:3) sonra kataloniyalılar bu mövsüm ÇL-i qrup üçüncüsü kimi başa vurub. Bununla da onlar Avropa Liqasının pley-off mərhələsinə düşüb.

“Barselona” tarixində son dəfə 17 il əvvəl Avropa Liqasının pley-off mərhə-



ləsində mübarizə aparıb. Klub bundan sonra ardıcıl 17 il Çempionlar Liqasının pley-off mərhələsinə çıxmağı bacarıb. Maraqlıdır ki, bu seriya Lionel Messinin “Barselona”da oynamasından sonra başlayıb və o, komandadan ayrıldıqdan sonra başa çatıb.

Qeyd edək ki, Çempionlar Liqasında ən çox ardıcıl pley-off-a vəsiqə qazanan klub “Real”dır. Madrid təmsilçisi ardıcıl 25 mövsüm bu uğura imza atıb.

Əlavə edək ki, “Barselona” heç vaxt Avroliqanı (əvvəlki UEFA Kuboku) qazanmayıb.



# "Mahir Emreli bu gündən mənim rəsmi müştərimdir" - FİFA agenti

***FİFA agenti Endo Osmani şəxsi instaqram hesabında Azərbaycan millisinin ”Legiya”da çıxış edən üzvü Mahir Emreli barədə paylaşım edib.***

Qol.az xəbər verir ki, futbol meneceri 24 yaşlı hücumçunun şəklini paylaşıb və onu təq edərək bunları yazıb: ”Məmnuniyyətlə bildirmək istəyərdim ki, bu gündən etibarən Mahir Emreli mənim rəsmi müştərimdir. Mənə güvəndiyiniz üçün təşəkkür edirəm”.

Osmaninin müştəriləri arasında daha çox Cənubi və Şimali Amerika klublarında çıxış edən futbolçular yer alır.

# Sergen Yalçın istefaya göndərildi

***”Beşiktaş” baş məşqçisi Sergen Yalçınla yolları ayırıb.***

Qol.az ”Fotomaç”a istinadən xəbər verir ki, İstanbul təmsilçisinin prezidenti Ahmet Nur Cebi ilə türk mütəxəssis arasında görüş zamanı bu qərar verilib. Komandanın müvəqqəti olaraq aşağı yaş qrupların məşqçisi Önder Karavelinin çalışdıracağı gözlənilir.

Qeyd edək ki, S. Yalçın 2020-ci ilin yayından ”Beşiktaş”ı çalışdırırdı. Komanda onun rəhbərliyi altında 2020/2021 mövsümündə Türkiyə Superliqasının qalibi olub. ”Qara qartallar” bu mövsüm Çempionlar Liqasının qrup mərhələsində xal toplaya bilməyib və avrokuboklarla vidalaşıb.

# Azərbaycanlı hakimlər fəxri ad aldı

***Gimnastika növləri üzrə ixtisaslaşmış bir sıra Azərbaycan hakimləri “Avropa Gimnastikasının fəxri hakimi” adına layiq görülüblər.***

Avropa Gimnastikasının məlumatına əsasən sözügedən fəxri ada layiq görülmüş hakimlər sırasında bədii gimnastika, kişi idman gimnastikası və tamblinq üzrə təmsilçilərimiz yer alıb.

Bunlar bədii gimnastika üzrə beynəlxalq dərəcəli hakim, Beynəlxalq Gimnastika Federasiyasının (FIG) bədii gimnastika üzrə Texniki Komitəsinin üzvü Natalya Bulanova, kişi idman gimnastikası üzrə beynəlxalq dərəcəli hakim Rza Əliyev və tamblinq üzrə beynəlxalq dərəcəli hakim Adil Hüseynzadədir.

Qeyd edək ki, “Fəxri Hakim” mükafatı ideyasını Avropa Gimnastikası ötən il irəli sürüb. Bu mükafat ən azı üç Olimpiya dövrü ərzində Avropa Gimnastikasına aid yarışların uğuruna töhfə vermiş hakimlər üçün nəzərdə tutulub.

Fəxri hakim adına layiq görülmüş bütün şəxslərə diplom və yaxa nişanı təqdim olunacaqdır.